AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti* *№ 2 (1347), 16 - 22 yanvar 2018-ci il* *Qəzet 2001-ci ildən çıxır.*

## BMX üzrə dünya çempionatının Təşkilat Komitəsinin İşçi Qrupunun iclası olub




Bu ilin iyun ayında Bakıda velosiped idmanının BMX növü üzrə təşkil olunacaq dünya çempionatı ilə əlaqədar Təşkilat Komitəsinin İşçi Qrupunun iclası keçirilib. Tədbirdə aidiyyatı nazirliklərin, digər dövlət qurumlarının və ictimai təşkilatların nümayəndələri iştirak ediblər.

İclası giriş sözü ilə Azərbaycan Velosiped İdmanı Federasiyasının 1-ci vitse-prezidenti, Avropa Velosipedçilər Birliyinin Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov açıb. Sahib Ələkbərov Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatının təşkilinin ölkəmizə həvalə edilməsini respublikasının idman siyasətinin daha bir qələbəsi adlandırıb.

(ardı 2-ci səhifədə)

## Pxençxan-2018 Qış Olimpiya Oyunlarının məşəli Seula gətirilib



Gələn ay Cənubi Koreyanın Pxençxan şəhərində keçiriləcək Qış Olimpiya Oyunlarının məşəli paytaxt Seula gətirilib.

4 gün ərzində Seulda bu münasibətlə müxtəlif tədbirlər keçiriləcək. Bu müddətdə Olimpiya məşəli təxminən 600 nəfərin əlində paytaxt küçələrində 103 kilometr məsafə qət edəcək.

Ötən il oktyabrın 24-də Yunanıstandakı qədim Hera məbədində alovlandırılan "Pxençxan-2018" Qış Olimpiya Oyunlarının məşəli noyabrda Cənubi Koreyaya gətirilib. Məşəl paytaxt Seula çatmazdan əvvəl ölkənin əsas şəhərlərini, o cümlədən Busan, Cecu, Kvancu, Decon və İnçonu gəzib.

Olimpiya məşəli estafeti daha sonra ölkənin şimal vilayətlərində davam edəcək və sonda Oyunların keçiriləcəyi Pxençxan şəhərinə çatacaq. Məşəl Cənubi Koreya ərazisində ümumilikdə 2018 kilometr məsafə qət edəcək. Bəyaz məşəlin uzunluğu 700 millimetrdir. Bu da Pxençxanın dəniz səviyyəsindən 700 metr hündürlükdə olmasını xarakterizə edir.

Qeyd edək ki, bu, Olimpiya məşəlinin Cənubi Koreyaya ikinci səyahətidir. Bundan əvvəl 1988-ci ildə Seulda keçirilən Yay Olimpiya Oyunları üçün məşəl bu ölkəyə gətirilmişdi.

PyeongChang 2018™

## XXIII Qış Olimpiya Oyunlarına 24 gün qalır

### "Pirelli" Azərbaycan Qran-prisi üçün şinləri müəyyən edib

"Pirelli" şirkəti aprelin 27-dən 29-dək Formula-1 yarışının dördüncü mərhələsi kimi Azərbaycan Qran-prisində istifadə ediləcək şinlərin modelini açıqlayıb. İtaliyalı şin istehsalçıları Bakıya "Soft", "SuperSoft" və "Ultra-Soft" şinlərini gətirəcəklər. Komandaların "Soft" və "SuperSoft" şinlərindən istifadə etməsi məcburidir. Onlar ən azı hərəyə bir dəst sifariş verməli və yarışmada heç olmasa birindən istifadə etməlidirlər. Ötən il Bakıdakı yarışlarda "Medium", "Soft" və "SuperSoft" şinlərindən istifadə olunmuşdu.

### Ölkə birinciliyində 140 idmançı yarışır

Dünən Boks Mərkəzində gənc boksçular arasında Azərbaycan birinciliyi start götürüb. 10 çəki dərəcəsi üzrə keçirilən yarışda paytaxt və bölgələri təmsil edən 31 komanda mübarizə aparır.

Birincilikdə qalib adı uğrunda 140 idmançı qüvvəsini sınayır.

Final qarşılaşmaları yanvarın 19-da keçiriləcək.

Azərbaycan gimnastları 2017-ci ili uğurla yola salıblar Səh. 2

Velosiped məktəbində dopinqlə bağlı seminar keçirilib Səh. 2

*Firdovsi Umudov:* "Məqsədimiz və hədəfimiz dəyişməzdir" Səh. 4

Tanınmış idmançı paytaxtımızın qonağı olub Səh. 4

## Olimpizm

### Proqnozlar nə deyir?

Pxençxan-2018 Qış Olimpiadasında Rusiyanın iştirak etməməsi çox güman ki, Almaniya və Norveç yığmalarının nəticələrinə müsbət təsir göstərəcək. Bu barədə Olimpiya Oyunlarında iştirak edən ölkələrin ənənəvi medal proqnozunu verən ABŞ-ın "Gracenote Sports" şirkəti məlumat yayıb.

Şirkət ötən həftə olimpiada ilə bağlı ilkin proqnoz verib. Proqnoza görə, Almaniya Olimpiya yığması əvvəlki qış olimpiadasında əldə etdiyindən 5 qızıl, Norveç isə 4 qızıl medal artıq qazanacaq.

Kanada və Fransa üçün bu rəqəm 2, Finlandiya, Böyük Britaniya, İtaliya və Hollandiya üçün 1 qızıl medal ola bilər.

PyeongChang 2018™

"Gracenote Sports" XXIII Qış Olimpiadasının çempionu kimi Almaniyanı görür. Proqnoza görə, almanlar bu yarışda 40 (14 qızıl, 12 gümüş və 14 bürünc) medal qazanacaqlar. 2-ci yerə 37 medalla (14 qızıl) Norveç yığmasının sahib olacağı gözlənilir. 3-cü pillədə isə 33 medalla Kanada yığmasının qərarlaşacağı ehtimal edilir.

### Olimpiya Oyunları sülhə xidmət edir

Yaponiya Nazirlər Kabinetinin Baş katibi Yoşihide Suqa Şimali Koreyanın Pxençxan-2018 Qış Olimpiya Oyunlarında iştirakını yüksək qiymətləndirdiyini bildirib.

Mətbuat konfransında çıxış edən Yoşihide Suqa qeyd edib ki, Olimpiya Oyunları sülhə xidmət edir və Şimali Koreyanın olimpiadada iştirakı ilə bağlı mövqeyini dəyişməsi müsbət haldır. Baş katib onu da bildirib ki, Şimali Koreyanın nüvə-raket proqramları bütün regionda sülhə və təhlükəsizliyə qarşı təhdiddir. Buna görə də Yaponiya hökuməti ABŞ və Cənubi Koreya ilə əməkdaşlıq şəraitində rəsmi Pxenyanın öz siyasətini dəyişməsi üçün müəyyən tədbirlər görməyə məcburdur.

Məlumat üçün bildirək ki, tərəflər arasında danışıqların aparılması yanvarın 20-dək davam edəcək.

### 42 idmançı CAS-a ərizə ilə müraciət edib

Beynəlxalq İdman Arbitraj Məhkəməsi (CAS) 42 Rusiya idmançısının apellyasiya ərizəsini qeydiyyatdan keçirib. Bunlar Beynəlxalq Olimpiya Komitəsinin (BOK) qərarı ilə ömürlük idmandan uzaqlaşdırılan idmançılardır.



İsveçrəli nümayəndə Denis Osvaldın rəhbərliyi altında BOK-un Nizam-İntizam Komissiyası Soçi-2014 Olimpiadasında iştirak edən və mükafat alan 43 Rusiya idmançısının nəticələrini ləğv edib. Həmin idmançılar, həm də Olimpiya Oyunlarında iştirak etmək hüququndan məhrum olunublar. BOK rusiyalı 46 idmançının işinə baxdıqdan sonra konkisürən Denis Yuskov və hokkeyçi Anna Şoxinaya bəraət verib. Soçi-2014 Qış Olimpiadasının çempionu Adelina Sotnikovanın işinə isə xitam verilib.

## Anons

Bədii gimnastika üzrə məşqçilik kursları uğurla yekunlaşıb Səh. 4

U-21 Antalyada 4 yoldaşlıq görüşü keçirəcək Səh. 6

"Olimpiya" Peşəkar Döyüş Klubunun əsas məqsədi ölkəmizdə idmanın inkişafına töhfə verməkdir Səh. 7

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

***İlham Zəkiyev:*** *"Nə qədər bacarıramsa, idmanda qüvvəmi sınayacağam"* Səh. 3

"Pəhləvan" klubunda uşaq və gənclərin fiziki və mənəvi inkişafı üçün hər cür şərait var Səh. 5

Velosiped

# BMX üzrə dünya çempionatının Təşkilat Komitəsinin İşçi Qrupunun iclası olub

(əvvəli 1-ci səhifədə)

O, dünya çempionatının Azərbaycanın idman həyatında növbəti mühüm bir hadisə olacağını qeyd edib. Vitse-prezident Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMX üzrə dünya çempionatının Bakı şəhərində yüksək səviyyədə təşkili üçün geniş tərkibli Təşkilat Komitəsinin yaradılması barədə Sərəncamının ölkə başçısının bütövlükdə idmanın, o cümlədən velosiped idmanının inkişafına göstərdiyi diqqət və qayğının daha bariz nümunəsi kimi dəyərləndirib.

Sahib Ələkbərov geniş təqdimatla çıxış edərək, dünya çempionatına hazırlıqla bağlı görülmüş işlər barədə məlumat verib. İclasda qeyd olunub ki, dünya çempionatında iştirak etmək istəyən ölkələrin sayı gündən-günə artır. Mötəbər yarışın keçiriləcəyi BMX Stadionunda aparılmış yenidənqurma işlərindən sonra ötən ilin oktyabr ayında təşkil olunan sınaq yarışları Beynəlxalq Velosipedçilər İttifaqının rəsmi nümayəndələri tərəfindən yüksək qiymətləndirilib və arenanın dünya çempionatının qəbul etməyə hazır olduğu rəsmi məktubla təsdiqlənib.

İclasın sonunda Bakıda dünya çempionatının keçirilməsi ilə bağlı tədbirlər planı müzakirə olunub. Məlumat verilib ki, artıq iştirakçı ölkə nümayəndələri tərəfindən Bakı şəhərində yerləşən otellərin çoxuna sifarişlər daxil olub. Yarışa gələcək iştirakçıların və qonaqların təhlükəsizliklərinin təmin olunması üçün lazımi tədbirlər görülür. Bundan başqa, xarici qonaqları Azərbaycanın tarixi, mədəniyyəti və mətbəxi ilə tanış etmək üçün konkret tədbirlər də hazırlanıb.

## Velosiped məktəbində dopinqlə bağlı seminar keçirilib



Respublika Olimpiya Ehtiyatları İxtisaslaşdırılmış Uşaq-Gənclər Velosiped İdmanı Məktəbi (ROEİUGVİM) 2018-ci ilə seminarla start verib. Seminarda qəbulu qadağan edilmiş maddələrlə mübarizə əsas müzakirə mövzusu olub.

Seminarı giriş sözü ilə açan ROEİUGVİM-in direktoru Faiq Qurbanov təmiz mübarizənin hər şeydən vacib olduğunu deyib. İdmançının karyerasının dopinq səbəbindən yarımçıq qalmasından danışan Faiq Qurbanov bu məqsədlə idmançılar, məşqçilər və valideynlər arasında maarifləndirmə işlərinin aparılmasının vacib olduğunu vurğulayıb.

Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) Təhsil və Təlim üzrə meneceri Lalə Hacıyeva və qurumun Teropevtik İstifadəyə İcazə Komitəsinin sədr müavini Fərid Əliyev Beynəlxalq Antidopinq Agentliyi (WADA) tərəfindən qəbulu qadağan edilmiş preparatların siyahısını təqdim ediblər. Nümayəndələr ROEİUGVİM-in idmançıları və məşqçilərinə qadağan olunmuş preparatların sağlamlığa və idman karyerasına mənfi təsirindən ətraflı danışıblar.

## Bakıda ənənəvi beynəlxalq karate turniri keçirilib

Yanvarın 13-14-də Azərbaycan Milli Karate Federasiyası (AMKF) və "Arpaçay" klubunun birgə təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş karate üzrə beynəlxalq turnir keçirilib.

Bakı İdman Sarayında keçirilən yarışlarda 6-17 yaşlı uşaqlar, yeniyetmə və gənclər mübarizə aparıblar. Yanvarın 13-də 6-7, 8-9 və 10-11 yaşlı uşaqlar, ertəsi gün isə 12-13, 14-15 və 16-17 yaşlı idmançılar tatami üzərinə çıxıblar. Turnirdə fərdi kata və kumite yarışlarından əlavə, kumite üzrə komanda çıxışları da keçirilib.

Qaliblər diplom və medallarla təltif olunublar.

* * *

Azərbaycan Milli Karate Federasiyası və "Arpaçay" karate klubunun təşkilatçılığı ilə dünya şöhrətli idmançı Rafael Ağayevin ilk beynəlxalq seminarı keçirilib. 5 qat dünya və 10 dəfə Avropa çempionu olan Rafael Ağayevin rəhbərliyi ilə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr edilmiş seminarda bir neçə ölkədən 100-dən artıq azyaşlı uşaq və yeniyetmə karateçi iştirak edib. Rusiya, İran, Özbəkistan, İsrail və Azərbaycanın müxtəlif şəhər və regionlarından olan idmançılar Rafael Ağayevin bacarıqlarını böyük həvəslə mənimsəyiblər. Uzun illərdir ki, dünyanın onlarla ölkəsində seminarlar keçən Rafael Ağayev ilk dəfə Azərbaycanda belə bir əhəmiyyətli tədbirin təşkil edilməsindən çox məmnun olduğunu və seminarın 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmasının öz idman karyerasında ən yaddaqalan məqamlardan biri kimi dəyərləndirib. Seminarın sonunda Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov və "Arpaçay" karate klubunun rəhbəri Yavər Hüseynov iştirak ediblər. Onlar tədbir iştirakçılarının dünyanın ən titullu karateçisi Rafael Ağayevin təcrübəsindən gələcək yarışlarda yararlanacağına əmin olduqlarını bildirərək, idmançılara uğurlar arzulayıblar. Sonda seminar iştirakçılarına sertifikatlar təqdim olunub.

Gimnastika



# Azərbaycan gimnastları 2017-ci ili uğurla yola salıblar

***Yola saldığımız 2017-ci il Azərbaycan Gimnastika Federasiyası üçün bir çox əlamətdar hadisə və mühüm tədbirlərlə yadda qalıb.***

Ötən ilin əvvəlində Bakı ilk dəfə Beynəlxalq Gimnastika Federasiyasının (FİG) bədii gimnastika üzrə qitələrarası hakimlik kursları, ardınca isə FİG-nin bədii gimnastika və kişi idman gimnastikası üzrə beynəlxalq hakimlik kurslarına ev sahibliyi edib. Azərbaycan təmsilçiləri bu və digər beynəlxalq hakimlik kurslarında uğurla iştirak edərək, müxtəlif hakimlik kateqoriyalarına sahib olublar. Hazırda ölkəmizdə gimnastikanın bütün növləri üzrə beynəlxalq dərəcəli hakimləri fəaliyyət göstərir. Rza Əliyev Azərbaycan gimnastikası tarixində ən yüksək - 1-ci dərəcəli beynəlxalq kateqoriyaya malik olan ilk hakimimizdir. Digər hakimimiz Kamil Quliyev isə ötən il batut gimnastikası üzrə təşkil edilən dünya çempionatında ilk azərbaycanlı hakim kimi çıxışların qiymətləndirilməsində iştirak edib.

Azərbaycan Gimnastika Federasiyası 2016-cı ildə olduğu kimi, 2017-ci ildə də gimnastikanın 3 növü üzrə dünya Kuboku mərhələ yarışlarını yüksək səviyyədə təşkil edib. Ötən il Milli Gimnastika Arenasında batut gimnastikası və tamblinq üzrə ilk Dünya kuboku, ardınca isə növbəti beynəlxalq turnir - kişi və qadın idman gimnastikası üzrə FİG Dünya Kuboku mərhələsi yarışları uğurla başa çatıb. Federasiyanın təşkilatçılığı ilə keçirilən ilin sonuncu beynəlxalq yarışı isə bədii gimnastika üzrə Dünya kuboku mərhələsi olub.

3 növ üzrə Dünya Kuboku yarışlarının ardından Bakıda FİG Şura iclası keçirilib. İclas çərçivəsində Azərbaycan Gimnastika Federasiyasının prezidenti, ölkənin birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Olimpiya idman növü olan gimnastikanın inkişafındakı böyük xidmətlərinə görə FİG-nin yüksək mükafatı ilə təltif olunub.

Gimnastlarımız ölkəmizin ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunlarında ümumilikdə, 20 medal qazanıblar. Qazanılan medallardan 8-i (4 qızıl, 2 gümüş və 2 bürünc) bədii gimnastlarımızın, 12-si isə idman gimnastlarımızın payına düşür. Qeyd edək ki, gimnastika İslam Həmrəyliyi Oyunlarının proqramında ilk dəfə idi ki, nümayiş etdirilirdi.

Ötən ildə gimnastika növləri üzrə yığma komandamız beynəlxalq turnirlərdə ümumi hesabda 96 (34 qızıl, 32 gümüş və 30 bürünc) medala sahib çıxıb. İdmançılarımızın qazandıqları uğurlar arasında xüsusilə, gimnastika tariximizdə ilk dəfə olaraq batut gimnastikası və tamblinq üzrə 25-ci Dünya Yaş Qrupu Yarışlarında tamblinqçimiz Mixail Malkinin çempion olmasını və akrobatika gimnastikasında qarışıq cütlüklərin (Ağasif Rəhimov-Nurcan Cabbarlı, Abdulla Əl Məşayxi-Ruhidil Qurbanlı) gənclər arasında Avropa çempionatında 3 bürünc medala layiq görülməsi sevindiricidir.

Ötən ilin yadda qalan hadisələrindən biri də Azərbaycan Gimnastika Federasiyasının 3-cü dəfə FİG tərəfindən "fərqlənən" federasiyaların reytinq siyahısına daxil edilməsidir. Bu qiymət milli federasiyamızın fəaliyyətinin yüksək qiymətləndirilməsi və beynəlxalq arenadakı nüfuzunun artmasının göstəricidir.

2017-ci ilin ölkəmiz və Azərbaycan Gimnastika Federasiyası üçün ən mühüm xəbəri isə dekabr ayında oldu. Belə ki, Xorvatiyanın Split şəhərində Avropa Gimnastika İttifaqının 27-ci Konqresi çərçivəsində keçirilən prezident seçkilərində Azərbaycan Gimnastika Federasiyasının baş katibi Fərid Qayıbov Avropa Gimnastika İttifaqının (UEG) prezidenti seçildi. Bu münasibətlə Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Fərid Qayıbovu təbrik edərək, ona gələcək işlərində uğurlar arzuladılar.

15 il AGF-in baş katibi işləyən Fərid Qayıbovu federasiyanın baş katibinin müavini Nurlana Məmmədzadə əvəz etdi.

AGF hər il olduğu kimi, ötən ildə də yeni il ərəfəsində bütün gimnastika sevərləri bir araya topladı. Gimnast və məşqçilərin iştirakı ilə təşkil edilən "Evdə tək" adlı möhtəşəm bayram şousu bütün tamaşaçılara əyləncəli anlar yaşatdı.

Azərbaycan Gimnastika Federasiyası 2017-ci ilə dekabr ayının son həftəsində AGF-nın 15 illik yubileyinə həsr olunmuş 8-ci ümumi yığıncağı ilə yekun vurdu. Tədbirdə gimnastika sahəsində nailiyyət və xidmətlərinə görə fərqlənən bir sıra şəxslərə xatirə medalları təqdim olundu.

Müsahibə

# Orxan Abbasov: "Azərbaycan bu il həndbol üzrə beynəlxalq turnirə ev sahibliyi edəcək"

***Azərbaycanda digər sahələrdə olduğu kimi, idman da sürətlə inkişaf edir. Ölkəmiz irimiqyaslı yarışlara yüksək səviyyədə ev sahibliyi edir, idmançılarımız beynəlxalq arenada qələbələr qazanaraq xalqımızı sevindirirlər. Ötən illərdə olduğu kimi, 2017-ci il də Azərbaycan idmançıları möhtəşəm qələbələr qazanaraq üçrəngli bayrağımızı dalğalandırıb, himnimizi səsləndiriblər.***

***Azərbaycan Həndbol Federasiyasının birinci vitse-prezidenti Orxan Abbasov ötən ilin idman yekunları və qarşıdakı perspektivlərlə bağlı müsahibə verib. Müsahibəni sizə təqdim edirik.***

***- Orxan müəllim, ötən ili Azərbaycan həndbolu üçün necə qiymətləndirirsiniz?***

- İdmanın digər növlərindən fərqli olaraq, həndbol bir neçə il ərzində ölkəmizdə durğunluq dövrünü yaşayıb. 2016-cı ilin sonunda Azərbaycan Həndbol Federasiyasında dəyişikliklər oldu. Saleh Məmmədov federasiyaya prezident seçildi. Bundan sonra həndbolun inkişafı üçün qarşıya mühüm vəzifələr qoyuldu, dəqiq planlar hazırlandı.

İdmanın bu növünü ölkəmizdə inkişaf etdirmək üçün əvvəlcə yeniyetmələrin həndbola cəlb olunmasından başladıq. Respublikamızın regionlarında seçimlər apardıqdan sonra məşqlərə start verdik. Həmçinin yeni klublar yaradıldı. Hazırda ölkəmizdə 10 həndbol klubu fəaliyyət göstərir. Bunlardan dördü kişi, altısı isə qadın həndbol klubudur. Gəncə, İsmayıllı, Mingəçevir, Qazax və Göygöldə yeniyetmələrdən ibarət komandalar yaradılıb.



Ötən il ölkəmiz növbəti dəfə irimiqyaslı yarışa yüksək səviyyədə ev sahibliyi etdi. Qadın həndbolçulardan ibarət millimiz Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarının qalibi oldu. Millimiz final oyununda Türkiyə yığmasını məğlub edərək ölkəmizə qızıl medal qazandırdı. Ölkə idmanında qazanılan bütün uğurlar Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da bu sahədə xidmətləri misilsizdir. Azərbaycan dünyada idman ölkəsi kimi tanınır və idmanın kütləviləşməsi istiqamətində ölkəmizdə mühüm addımlar atılır.

Hazırda on klubun iştirakı ilə həndbol üzrə ölkə çempionatı davam edir. Digər çempionatlarla müqayisədə bu yarışın müddəti daha uzundur. Çempionata mayın əvvəllərində yekun vurulacaq. Yarış 20 turdan ibarətdir. Hazırda "Azəryol" komandası turnir cədvəlinin lideridir.

***- Bu il həndbolçularımızı hansı sınaqlar gözləyir?***

- Qadın həndbolçulardan ibarət Azərbaycan millisi dünya çempionatının seçmə mərhələsində mübarizə aparacaq. Qadınlarla yanaşı, kişilərdən ibarət milli komandalarımız da təlim-məşq toplanışlarında iştirak edəcəklər.

2019-cu ildə Azərbaycan Avropa Yeniyetmələrinin Yay Olimpiya Festivalına ev sahibliyi edəcək. Bu mötəbər turnirin idman proqramına həndbol da daxildir. Hazırda yeniyetmələrdən ibarət millimiz yarışa ciddi hazırlaşır. Çünki bu yarışda həndbolçularımızı gərgin idman mübarizəsi və güclü rəqiblər gözləyir.

2016-2017-ci illər mövsümündə ölkə çempionatının gümüş medalını qazanan "Azəryol" komandası "Çağırış" kubokunda iştirak hüququ qazanıb. Bakı təmsilçisi ilk görüşündə Lüksemburqun "Düdelanj" komandasını mübarizədən kənarlaşdırıb. Rəqibimiz güclü komanda idi və həndbolçularımız "Düdelanj" səddini aşmağı bacarıblar. 1/8 final mərhələdə isə rəqibimiz İsveçin "Kristianstad" klubu olacaq. Komandalar arasında 1/4 final mərhələsi uğrunda görüşlərin fevralın 2-də və 3-də Bakıda keçirilməsi nəzərdə tutulub. Qarşılaşmaların ölkəmizdə təşkil olunması həndbolun inkişafına mühüm təkan verəcək. Həmçinin azarkeşlərin dəstəyi də önəmli rol oynayır. Qeyd etmək istərdim ki, çempionatın oyunlarında da tribunalar azarkeşlərlə dolu olur.



***- Azərbaycanda idmanın bu növünün inkişafı istiqamətində hansı addımlar atılır?***

- Azərbaycan Həndbol Federasiyası idmanın bu növünün inkişafını həmişə diqqət mərkəzində saxlayır. Biz idmanın bu növünün kütləviləşməsinə nail olmaq üçün regionlardan başladıq və yeni komandalar yaratdıq. İstəyirik ki, orta məktəblərdə də uşaqlar həndbol ilə məşğul olsunlar. Bu istiqamətdə işlər davam edir.

Azərbaycan bu il həndbol üzrə beynəlxalq turnirə ev sahibliyi edəcək. Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunacaq turnirin mayda təşkil edilməsi nəzərdə tutulub. Ənənəvi xarakterli olacaq yarışda iştirak üçün bir neçə ölkəyə dəvət göndəriləcək və turnir Avropa Həndbol Federasiyasının təqviminə daxil ediləcək.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

# İlham Zəkiyev:
# “Nə qədər bacarıramsa, idmanda qüvvəmi sınayacağam”

***“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı” layihəsi çərçivəsində budəfəki yazımızı İlham Zəkiyevlə müsahibəyə həsr etmişik. İnsani keyfiyyətləri, həyata olan inamı və özündə güc tapıb qələbələri ilə minlərlə insanın ürəyini fəth edən ikiqat paralimpiya çempionu, bir çox beynəlxalq yarışların qalibi və ən əsası Qarabağ qazisi olan İlham Zəkiyevi bundan ətraflı təqdim etməyə ehtiyac yoxdur. Bu cür insanların keçdiyi yol, əldə etdiyi uğurlar hər birimiz üçün örnəkdir. Müsahibimizlə söhbət etdikcə onun nə qədər səbrli, nə qədər alicənab olduğunu bir daha hiss etdik. Ona ünvanlanan sualların hər biri maraqla və təmkinlə cavablandı. Həmin müsahibəni oxucularımıza təqdim edirik.***

***- Biz sizi yaxşı tanıyırıq. Amma siz də özünüz barədə bizim bilmədiklərimizi deyərdiniz.***

- Mən, Zəkiyev İlham Əzizağa oğlu 1980-ci il mart ayının 3-də Sumqayıt şəhərində anadan olmuşam. Ailədə 4 qardaş, 1 bacıyıq. Atam zavodda fəhlə, anam isə bağçada dayə işləyirdi. 1997-ci ildə Sumqayıt şəhər 5 nömrəli məktəbini bitirmişəm. 2005-ci ildə ailə həyatı qurmuşam. 3 övladım var. Böyük oğlum İlkinin 11 yaşı var. Qızım Aynurun 9, ailəni son beşiyi Həmzənin isə 4 yaşı var.

***- Hər bir idmançını bu sahəyə hər hansı bir səbəb və həvəs yönəldir. Bəs sizi?***

- İdmana olan həvəsim böyük qardaşım Fikrətin sayəsində yaranıb. O, sərbəst güləşlə məşğul olurdu. 11 yaşından etibarən mən də ona qoşulub məşqlərə başladım. Amma bu çox çəkmədi. Vəziyyət elə gətirdi ki, məşqçimiz xaricə getdi və məşqlər dayandı. 15 yaşım olarkən, Əhməddin Rəcəblini rəhbərliyi ilə cüdo məşqlərinə başladım. Qısa müddətdə respublikadaxili yarışlarda çıxış etməyə başladım. Dəfələrlə şəhər çempionu, respublika mükafatçısı oldum. 1998-ci ilin iyun ayında son yarışda çıxış edib, Azərbaycan kubokuna sahib oldum.



## “Mən anamın səsini eşidib, komadan ayıldım”

***- Hərbi xidmətə çağırılmağınız haqda danışardız.***

-1998-ci ildə həqiqi hərbi xidmətə çağırıldım. Mən də hər bir Azərbaycan oğlu kimi vətənə borcumu verməyə getdim. Təbii ki, idmançı olduğum üçün yoldaşlarımdan seçilirdim . Məni “N” saylı hərbi hissənin kəşfiyyat bölüyünə seçdilər. Sona qədər həmin bölükdə qulluğumu davam etdirdim. Nümunəvi xidmətə görə Fəxri fərmanla təltif olundum. 1999-cu il, 4 fevral (Müsahibim bu tarixi səsləndirib, bir neçə saniyə susdu-red). Füzuli rayonunun Aşağı Əbdürəhmanlı kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirən zaman düşmən snayperinin gülləsinə tuş gəldim. Güllə sol gicgahımdan daxil olub, sağ tərəfdən çıxdı. Hospitalda 5 gün koma vəziyyətində qaldım. Həkimlər valideynlərimə demişdilər ki, hər şeyə hazır olun. Amma orqanizmi güclüdür. İdmançı olması onun həyatını təhlükədən qurtara bilər. Belə də oldu. Şükürlər olsun, Allahın böyüklüyünə, 5 gün sonra mən anamın səsini eşidib, komadan ayıldım. Lakin, təəssüf ki, anamı görə bilmədim.

***- Komadan ayıldığınız məqamı necə xatırlayırsınız?***

- Başımdan aldığım güllə yarası məni həyat işığından məhrum etmişdi. Görmə qabiliyyətimi tamamən itirmişdim. Hospitalda nə baş verdiyini anlamırdım. Yaralandığım anı belə xatırlamırdım. Hər yer qaranlıq idi. Dəhşətli ağrılarım isə aman vermirdi. Yadımda heç nə qalmamışdı. “Mən niyə beləyəm, mənə nə olub?” suallarına cavab tapa bilmirdim. Baş verənləri sonradan yavaş-yavaş mənə izah elədilər. Bunu qəbul etmək, doğrudan da, çətin idi. 19 yaşımı hospitalda qeyd etdim. Evimizə 1-ci qrup Qarabağ müharibəsi əlili kimi qayıtdım. İlk günlər bu vəziyyətə alışmaq çətin idi. Yenə də, şükürlər olsun, Allahın böyüklüyünə. Dostlarım, ailəm və yaxınlarım məni tək qoymadılar.

## “Dünya çempionu olmaq sənin alnına yazılıb get, sabahdan məşqlərə başla”

***- Bu cür vəziyyətdə özündə güc tapmaq və hər şeyə yenidən başlamaq asan olmur. Siz bunu necə bacardınız?***

- Yenidən idmana qayıtmağım təsadüfi oldu. 2002-ci ildə keçmiş gənclər idman və turizm naziri Əbülfəs Qarayevə müalicəm ilə bağlı müraciət etdim. Əbülfəs müəllim bu barədə Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevə məruzə etdi. Bir həftə sonra məni Moskvanın ən yaxşı göz klinikasına göndərdilər. Məni müalicə etdikdən sonra bildirdilər ki, görmə qabiliyyətimin bərpası hələ ki, mümkün deyil. Biz Rusiya paytaxtını məyus halda tərk etdik. Bakıya qayıdandan bir müddət sonra Gənclər İdman və Turizm Nazirliyinin şöbə müdiri Tağı Tağıyevlə görüşüb, söhbət etdim. Soruşdum ki, Paralimpiya oyunlarının proqramında gözdən əlillər üçün hər hansı bir güləş növü varmı? Elə yanımda o, Milli Paralimpiya Komitəsinə zəng vurdu. Komitədən bildirdilər ki, cüdo idman növü var. Tağı müəllim onlara dedi ki, indi mənim yanımda gələcəyin dünya, Avropa, Olimpiya çempionu oturub. Onu sizin yanınıza göndərirəm. Mənə də elə yarıgerçək, yarızarafat dedi: “İlham, dünya çempionu olmaq sənin alnına yazılıb get, sabahdan məşqlərə başla”. Çox gözləmədim. Milli Paralimpiya komitəsinə getdim. Başda komitənin prezidenti İlqar Rəhimov olmaqla bütün kollektiv məni çox isti qarşıladı. Əlbəttə ki, o vəziyyətdə məşqlərə başlamaq çətin idi. Komitə mənim üçün lazımı şəraiti yaratdı. Mən 2002-ci il noyabr ayının 1-də yenidən idmana qayıtdım. 2003-cü ilin avqust ayının 7-də Kanadanın Kvebek şəhərində görmə əlilliyi olan idmançıların dünya çempionatında ilk dəfə tatamiyə çıxdım. Yarışlarda 3-cü yerə layiq görüldüm. Amma 2004-cü ildə Afinada təşkil olunan Paralimpiya oyunlarına lisenziyanı təmin etdim. Bununla da Azərbaycanı Oyunlarda təmsil edən ilk cüdoçu oldum. Həmin heyətdə təkcə mən ölkəmizi təmsil edəcəkdim. 2004-cü ilin sentyabrın 22-də tatamiyə çıxdım. Kanadada məğlub olduğum kubalı ilə yenidən üz-üzə gəldim. Amma bu dəfə ona şans vermədim. Ona qalib gəlmək üçün 1 dəqiqə 40 saniyə kifayət etdi. Yarımfinalda rəqibim ispaniyalı idmançını tatamidən məğlub yola salmaq üçün 38 saniyə bəs etdi. Final görüşündə ingiltərəli idmançını 1 dəqiqə 2 saniyə ərzində məğlub etdim. Beləliklə, Azərbaycanın ilk paralimpiya çempionu adını qazandım. “Ellada torpağı”nda qələbəmin şərəfinə Azərbaycan himninin sədaları altında dövlət bayrağımız yüksəldi. Həmin anda dünyada məndən xoşbəxt insan ola bilməzdi. 2005-ci ildə Avropa çempionu oldum. O vaxtdan bu günə qədər karyeramı davam etdirirəm. Azərbaycanın ilk dünya çempionuyam. Afina və Pekin Paralimpiya Oyunlarında qızıl, Londonda isə bürünc medala yiyələnmişəm.





***- “Ən çətin yarışınız hansı olub?”, sualı səslənəndə düşüncələriniz hansı görüşə köklənir?***

- Heç bir yarış, heç bir uğur mənim üçün rahat olmayıb. Yarışlarım və rəqiblərimin hamısı bu günə kimi yadımdadır. Ən məsuliyyətli yarış isə Avropa Oyunları oldu. Bakıda keçirilən Avropa Oyunlarına yaxşı hazırlaşmışdım. Bildiyiniz kimi, para-cüdo Avropa oyunlarının proqramına məhz mənə görə salınmışdı. Bu çox məsuliyyətli idi. Çalışıb, Azərbaycanı layiqincə təmsil etməli idim. Doğma divarlar məsuliyyətimi birə-beş artırırdı. Avropa Oyunlarının məşəlini alovlandırma mərasimində cənab Prezidentlə dialoqumuz olmuşdu. Cənab Prezidentə demişdim ki, iyulun 26-sı tatamiyə çıxacağam. Çünki həmin tarix Azərbaycan Silahlı Qüvvələrinin yaranması günü ilə əlamətdardır. Çalışacağam ki, həmin gün Ali Baş Komandana qızıl medal hədiyyə edim. Mehriban xanım və cənab Prezident də dedi ki, İlham, biz səndən yalnız qələbə gözləyirik.

Finaldan qabaq mənə dedilər ki, İlham, cənab prezident sənin final görüşünə baxmağa gəlir. Mənim həyəcanım, məsuliyyətim daha da artdı. Final görüşündə rəqibi məğlub edərək qızıl medal qazandım. Cənab prezident təltifolunma mərasimində qızıl medalı mənim boynuma asanda, mən onu kürsüyə dəvət etdim. Cənab prezident mənim dəvətimi qəbul etdi. Fəxri kürsüdə onu Silahlı Qüvvələrin yaranması münasibətilə təbrik etdim. Ona məruzə etdim ki, cənab Ali Baş Komandan, əsgər Zəkiyev verdiyiniz döyüş tapşırığını yerinə yetirdi, qızıl medalı qazandı. Cənab prezident isə öz növbəsində dedi ki, İlham, Azərbaycan səninlə fəxr edir.

## “Bakıdan Rioya edilən zəng və idmanda ilk hadisə”

***- Sizi nə ruhlandırır?***

- Bu gün idmana olan diqqət və qayğı, cənab Prezidentin bizimlə maraqlanması bizi yeni qələbələrə ruhlandırır, stimul verir. Hətta Rio paralimpiya oyunlarında mənim səhhətimdə problem var idi. Həkimlər mənə yarışmağı qadağa qoymuşdular. Lakin mən buna baxmayaraq, tatamiyə çıxdım və yarışdım. Hakimlərin qərəzli mövqeyi nəticəsində 5-ci oldum. Hələ Rioda olanda, zəng eləyib təbrik etdilər ki, ölkə başçısı səni xüsusi fəxri diplom ilə təltif edib. Belə bir şey idman tarixində hələ olmamışdı. Bu, mənə göstərilən, işimə verilən diqqət və qayğının nümunəsidir.

***- Vətəni hərə bir cür sevir, siz necə sevirsiz?***

- Vətəni sevməyin kriteriyaları yoxdur. Gördüyümüz iş göz qabağındadır. Vətənə qulluğum hərbidə yarımçıq qalsa da, bu gün vətənə qulluğu idmanda, tatamidə davam etdirirəm. Hər dəfə Azərbaycan bayrağı qalxanda, himni səslənəndə öz işimlə fəxr edirəm. Ötən il mart ayında hesabat-seçki konfransı keçirildi. İlqar Rəhimovu Paralimpiya Komitəsinin prezidenti, məni isə vitse-prezident vəzifəsinə təyin etdilər. Bu, mənim məsuliyyətimi bir az da artırdı. Artıq ictimai həyata ilk addımlarımı atdım. Mənə çox zənglər gəldi ki, İlham, artıq səni tatamidə görməyəcəyik? Dedim, bu iş digərinə mane olmur. Nə qədər bacarıramsa, idmanda qüvvəmi sınayacağam.

***- Övladlarınızın idmanla məşğul olmasını istərdiz?***

- Oğlanlar, təbii ki, ən azından, sağlamlıq üçün idmanla məşğul olacaqlar. İlkin hazırda cüdo ilə məşğul olur. Hətta respublikadaxili uğurları da olub, hələ beynəlxalq arenaya çıxmayıb. Amma əsas təhsildir. Təhsilə üstünlük veririk ki, qoy savadlı, ağıllı olsunlar. İnşallah, idmanla da paralel məşğul olacaqlar. Hər halda o istedadı mən onlarda görsəm, öz təcrübəmi onlarla bölüşəcəyəm.

## “Arzular insanı həyata bağlayır”

***- Azərbaycanlı idmançılardan dostluq münasibətində olduğunuz var?***

- Azərbaycan bayrağı altında yarışan hər bir idmançı ilə əlaqəm var. Yarışa gedəndə də, qayıdanda da əlaqə saxlayır, qələbələrinə sevinirəm. Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. İl ərzində bizdə bir neçə beynəlxalq turnirlər, dünya, Avropa çempionatları keçirilir. O yarışların proqramında cüdo olmasa belə gedib iştirak edirəm. Bir növ komandalarımıza, idmançılarımıza dəstək olmağa çalışıram. Əvvəlcə, məğlub olan idmançılara zəng edib dəstək oluram. Qələbə qazanan idmançıları təbrik edən, təbii ki, çoxdur.

***- Sizin üçün ən unudulmaz məğlubiyyət hansı olub?***

- Unudulmaz məğlubiyyətlərim az olmayıb. Amma hər birinin əvəzini qələbə ilə çıxmışam. Ən yadda qalanı isə İslam Həmrəyliyi Oyunlarında özbəkistanlı rəqibimə uduzmağım olub. Qarşıda bir sıra mötəbər yarışlarım var. Əminəm ki, onunla yenə görüşəcəyəm. Bu dəfə ona qələbə üçün imkan verməyəcəyəm.

***- Əgər görmə imkanınız olsaydı kimi görmək istərdiz?***

- Övladlarımı görmək istərdim. Axı, onları görməmişəm.

***- İlham Zəkiyev özünü daha hansı peşədə görmək istəyərdi?***

- Uşaq vaxtı, təbii ki, hər kəsin bir arzusu olur. Böyüyüb təhsil almaq, əsgərlik çəkmək, sonra qayıdıb ali təhsil almaq, ailə həyatı qurmaq və sairə. Arzular bitir ki? Əlbəttə ki, mənim də arzum var idi. İstəyirdim ki, polis və ya güc sturukturlarında işləyim. Amma sabaha ümidliyəm. Arzular insanı həyata bağlayır.

***- Belə bir yanaşma var. Övladlar valideynlərin həyata keçirə bilmədiyi işləri sona çatdırmalıdır. Razılaşırsınız?***

- Əsla. Valideynlərin özlərinin etmədiyini övladlarına məcbur etməsi düzgün fikir deyil. İnşallah, onu zaman göstərəcək. Həyat onları öz axarına salacaq. Hər halda övladlarıma doğru yol göstərib, kömək etməyə çalışacağam.

***- Olanlarla qane olmamağın bir adı da naşükürlükdür.***

- Dini kitabımız Quranda da onlar haqqında buyrulur ki, adəm övladı naşükürdür. İnsanlar Allahın onlara verdikləri saysız nemətlərə baxıb şükür etməlidirlər. Bəli, olanlarla qane olmayan insanın adı naşükürdür.

***- Hərə xoşbəxtliyi bir cür başa düşür. Bəs İlham Zəkiyev bu hissi necə ifadə etməyə çalışacaq?***

- Dahi insanlardan biri demişdir ki, xoşbəxt insanlar evdən işə, işdən evə tələsənlərdir. Xoşbəxt insan odur ki, sevir, sevilir. Sevdiklərinin ətrafındadır. Bu gün mən xoşbəxtəm ki, sevdiklərimin ətrafındayam. Bu hissi bundan gözəl, bundan səhih ifadə edə bilmərəm.

***Anar Əhmədov,***
***Əliyə İlyasova***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*



# Firdovsi Umudov:
## "Məqsədimiz və hədəfimiz dəyişməzdir"

Azərbaycan Güləş Federasiyasının (AGF) rəhbərliyində kadr dəyişikliyi aparılıb. AGF-nın I vitse-prezidenti vəzifəsinin icrası Firdovsi Umudova həvalə edilib. Qeyd edək ki, bu vəzifəni müvəqqəti olaraq Sahib Ələkbərov icra edirdi.

Firdovsi Umudov sərbəst güləş üzrə yığma komandanın baş məşqçisi, Əməkdar məşqçi, beynəlxalq dərəcəli idman ustası, Dünya Güləş Birliyi Məşqçilər Assosiasiyasının üzvüdür. İdmançı kimi karyerası ərzində dəfələrlə Azərbaycan çempionu, gənclər arasında Avropa çempionatının, tələbələr arasında dünya çempionatlarının mükafatçısı, Dünya kubokunun qalibi olub. Firdovsi Umudov güləş idman növünün inkişafındakı xidmətlərinə görə 2009, 2012 və 2015-ci illərdə Azərbaycanın, 2012-ci ildə dünyanın ən yaxşı məşqçisi seçilib, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Şöhrət" ordeni, "Tərəqqi" medalı və "Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu" ilə təltif olunub.

Yanvarın 12-də Azərbaycan Güləş Federasiyasında yığma komandaların məşqçi heyəti ilə görüş keçirilib. Federasiyanın 1-ci vitse-prezidenti Firdovsi Umudovun sədrliyi ilə keçirilən görüşdə bu günə qədər görülən işlər, qarşıda duran məqsəd və vəzifələrdən danışılıb.

Firdovsi Umudov bu günə qədər qazanılan uğurlar və görülən işlər barədə danışaraq, bu uğurların əldə olunmasını ölkə başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin idmana, o cümlədən, güləşə göstərdiyi daimi qayğının nəticəsi kimi qiymətləndirib.

AGF-nin 1-ci vitse-prezidenti qarşıda güləşçilərimizi gözləyən yarışlardan da danışıb: "Qarşıda bizi bütün yaş kateqoriyalarında dünya və Avropa çempionatları, Yeniyetmələrin III Yay Olimpiya Oyunları gözləyir. Argentinanın Buenos-Ayres şəhərində keçiriləcək yarışlarda ən azı Sinqapur-2010 və Nankin-2014 Olimpiadalarındakı uğuru təkrarlamalıyıq. İllik təqvim planımız bəllidir, güləşçilərimiz məşqləri plana uyğun olaraq davam etdirir. Tokio-2020 Yay Olimpiya Oyunlarına qədər hazırlıqlarımız ən yüksək səviyyədə davam edəcək. Uğura gedən yol çalışmaq, əzmkarlıq və nizam-intizamdan başlayır. Bizim məqsədimiz və hədəfimiz dəyişməzdir. Azərbaycan güləşini daha da inkişaf etdirmək, dünya miqyasında mövqeyimizi qoruyub saxlamaq və daha da gücləndirmək üçün var-gücümüzlə çalışmalıyıq. Bizim əsas hədəfimiz yeni-yeni qələbələr, nailiyyətlər qazanmaq, bayrağımızı qaldırıb, himnimizi səsləndirməkdir".

Görüşün sonunda yığma komandaların məşqçilərinin gələcək planları müəyyənləşdirilib, müvafiq göstərişlər verilib.

## Bədii gimnastika üzrə məşqçilik kursları uğurla yekunlaşıb

Bakıda Beynəlxalq Gimnastika Federasiyası (FİG) Akademiyasının mütəxəssisləri tərəfindən bədii gimnastika üzrə məşqçilik kursları keçirilib.

3-cü dərəcəyə aid məşqçilik kurslarında tibbi biliklər, psixologiya və idmanda zədələrin qarşısının alınması əsas mövzunu əhatə edib. Kurslarda yerli məşqçilərlə birlikdə Rusiya, Ukrayna və Bolqarıstandan da təmsilçilər iştirak ediblər. Kursa rəhbərliyi FİG-nin mütəxəssisi, kanadalı Hartmut Fink edib. Təlimlərdə Nadya Aleksandrova (Böyük Britaniya), Marta Bobo (İspaniya), Lasse Harald Nettum (Norveç) və Madeleine Halle (Kanada) iştirak ediblər.

Qeyd edək ki, Azərbaycan Gimnastika Federasiyası 2013-cü ildə bədii gimnastika üzrə 1-ci dərəcəyə, 2014-cü ildə isə 2-ci dərəcəyə aid məşqçilik kursları təşkil edib. İndiki kurslarda iştirak edənlər 2-ci məşqçilik dərəcəsinə sahibdirlər.



## Tanınmış idmançı paytaxtımızın qonağı olub

Əlbəyaxa döyüş növləri üzrə tanınmış israilli təlimatçı Viktor Rabaev növbəti dəfə Bakıda "Krav Maqa" seminarı təşkil edib. Əlbəyaxa döyüş növlərinin təlimatçısı, kata üzrə milli komandamızın baş məşqçisi Vahid Ayvazovla birgə keçirilən seminarda real aykido, qarışıq döyüş növləri, karate və digər sahələrin mütəxəssisləri və idmançıları iştirak ediblər.

Azərbaycan Milli Karate Federasiyasının (AMKF) təlim-məşq bazasında keçirilən seminarda Viktor Rabaev soyuq silahlardan qorunmaq və digər özünü müdafiə fənlərində peşəkar təcrübəsini iştirakçılarla paylaşıb. AMKF və Azərbaycan Peşəkar Döyüş Növləri Assosiasiyasının prezidenti Yaşar Bəşirov qonağa minnətdarlığını bildirərək onu yenidən Bakıda görməyə məmnun olduğunu deyib. O, əlbəyaxa döyüş növləri seminarının Azərbaycan və İsrail dövlətləri arasında dostluq və əməkdaşlığın bir hissəsi kimi dəyərləndirib.

Dəvətə görə təşəkkürünü bildirən Viktor Rabaev Bakıda özünü vətəndəki kimi hiss etdiyini, əlbəyaxa döyüş növləri sənətində peşəkar biliklərini hər zaman azərbaycanlı həmkarları ilə bölüşməyə hazır olduğunu deyib.

## "Neftçi idman klubu" İB

# Futbol məşqçiləri bir araya toplaşıb

"Neftçi İdman Klubu"nun təşkilatçılığı ilə Qaradağ Təlim-İdman Bazasında keçirilən futbol məşqçilərinin növbəti seminarı başa çatıb. Beş gün davam edən seminarın keçirilməsində əsas məqsəd məşqçilərin metodiki cəhətdən daha yaxşı hazırlanması, məşqlərin müasir səviyyədə qurulmasına yardım edilməsi və son nəticə kimi yeniyetmə, istedadlı futbolçuların yetişdirilməsinə nail olmaqdır.

Klubun kütləvi bədən tərbiyəsi üzrə meneceri Akif Məmmədov seminar iştirakçılarını "Neftçi İdman Klubu" idarəetmə aparatının rəhbəri Sadıq Sadıqovun adından salamlayaraq, uşaq futbolunun əhəmiyyətindən, kiçikyaşlı futbolçuların seçimi ilə bağlı məsələlərdən danışıb. Akif Məmmədov futbolla məşğul olan uşaqların arasından istedadların üzə çıxarılması və onların qorunmasında dünya təcrübəsindən yararlanmağın vacib olduğunu deyib.

Sonra FİFA referisi Əliyar Ağayev və FİFA-nın referi köməkçisi Mübariz Haşımov çıxış edərək seminar iştirakçılarına oyun qaydaları haqda ətraflı məlumat verərək məşqçilərin suallarını cavablandırıblar.

Seminarda "Neftçi İdman Klubu" Uşaq Futbol Məktəbinin direktoru Məhərrəm Həsənov müxtəlif sistemlər haqda geniş məlumat verib. O 4:3:3 sisteminin təsnifatı; bu sistemdə rəqibin 1, 2, 3 və 3+1 hücumuna qarşı müdafiəçilərin davranışı; mövqeləri itirdikdə, 1:2, 2:3, 2:4, 3:4 zamanı onların sığortalamaları; mövqelərə sahib olduqda rəqibin 1, 2, 3 və 3+1 hücumlarına qarşı necə davranmalı; mövqelərdən keçid və bu keçidin təkmilləşdirilməsi; mövqeləri itirdikdə və tutduqda orta sahə oyunçularının davranışı; müdafiə, orta sahə oyunçuları və hücumçuların birgə fəaliyyəti - son tamamlama; istedad - onun inkişaf yolları, təkamül, xronoloji və bioloji böyümə, uğurlu amillər və istedadın inkişafında 10 əsas amil; oyun qaydaları və digər mövzularda həm nəzəri, həm də praktik məşqlər keçirilib.



Qeyd edək ki, "Qaradağ Lökbatan" komandasının baş məşqçisi Həbib Ağayev də seminarda iştirak edib.

*"Neftçi İdman Klubu" İctimai Birliyinin mətbuat xidməti*

## "Zanbaqlar ölkəsi"ndə zəka mübarizəsi

Yanvarın 12-də Hollandiyanın Veyk-an-Zee şəhərində sayca 80-ci "Tata Steel Chess" yubiley superturniri start götürüb. Turnir həmişə olduğu kimi, bu dəfə də dünyanın aparıcı qrossmeysterlərini bir yerə toplayıb. Superturnirdə Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarovla yanaşı, Maqnus Karlsen (Norveç), Fabiano Karuana, Uesli So (ABŞ), Vladimir Kramnik, Petr Svidler, Sergey Karyakin, Maksim Matlakov (Rusiya), Vişvanatan Anand, Başkaran Adiban (Hindistan), Aniş Qiri (Hollandiya), İ Vey, Yifan Hou (Çin) və Cons Qaveyn (İngiltərə) çıxış edirlər.

Əsas turnirlə yanaşı, proqrama həvəskarlar arasında çoxsaylı yarışlar, həmçinin 14 şahmatçının yarışacağı daha bir dairəvi turnir daxildir.

Yarışa yanvarın 28-də yekun vurulacaq.

## Millimizin üzvü ən məhsuldar oyunçu seçilib

Qadın voleybolçulardan ibarət Azərbaycan millisinin hücumçusu Polina Rəhimova İstanbulun "Fənərbağça" klubunun heyətində Çempionlar Liqası çərçivəsində İtaliyanın "Novara" komandasına qarşı keçirilən matçda iştirak edib. Oyunda Polina Rəhimova 33 xal yığaraq görüşün ən məhsuldar oyunçusu olsa da, komandası 2:3 hesabı ilə məğlub olub.

Qeyd edək ki, iki turdan sonra "Fənərbağça" 4 xalla qrupda ikinci yerdə qərarlaşıb.

## Favoritlərdən asan qələbə

Həndbol üzrə Azərbaycan çempionatında yeni ilin ilk oyunları qadınlar arasında keçirilib. "İdman Akademiyası" komandası ilə qarşılaşan "Qarabağ" həndbolçuları rəqiblərini asanlıqla məğlub ediblər - 34:22. Turun digər oyununda isə "Azəryol" və Azərsu" kollektivləri üz-üzə gəliblər. Gərgin və maraqlı keçən matç tərəflərin cəhdlərinə baxmayaraq heç-heçə başa çatıb - 32:32.

Xatırladaq ki, sonuncu dəfə dekabrın 16-da ölkə kuboku uğrunda yarışda qarşılaşan "Azəryol" və "Azərsu" komandalarının oyunu da 30:30 hesabı ilə heç-heçə başa çatmışdı.

Yanvarın 14-də isə kişilər arasında həndbol üzrə Azərbaycan çempionatında növbəti turun oyunları keçirilib. Görüşlər favoritlərin asan qələbəsi ilə yekunlaşıb. Belə ki, "Təhsil" komandası Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin (RİOEUGİM) yetirmələrini 48:26, "Məhsul" kollektivi isə "Bakı" həndbolçularını 37:30 hesabı ilə məğlub edib.

# Bu il Azərbaycan bir sıra mühüm beynəlxalq idman yarışlarına və tədbirlərinə ev sahibliyi edəcək

***Azərbaycanın mötəbər idman yarışlarına uğurla ev sahibliyi etməsi, idmançılarımızın beynəlxalq turnirlərdə qazandığı parlaq qələbələr respublikamızın idman ölkəsi olduğunun bir daha təsdiqləyir. Bu il də Azərbaycan idman ölkəsi statusunu qoruyub saxlamaq niyyətindədir. Belə ki, 2018-ci ildə də ölkəmiz müxtəlif idman növlərini əhatə edən önəmli beynəlxalq idman yarışlarına və irimiqyaslı tədbirlərə ev sahibliyi edəcək.***

Bu il ölkəmizdə keçiriləcək və dünyanın diqqətini cəlb edəcək ən əhəmiyyətli idman tədbirlərindən biri Formula-1 Azərbaycan Qran-Prisi olacaq. Bu möhtəşəm yarış aprelin 27-29-da təşkil ediləcək.

Bundan başqa, iyunun 5-9-da ölkəmizdə Beynəlxalq Velosipedçilər İttifaqının velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatı təşkil olunacaq.

Cari il ölkəmiz, həmçinin martın 15-18-də idman gimnastikası üzrə dünya kubokuna, aprelin 12-15-də batut gimnastikası, tamblinq və ikili mini batut üzrə Avropa çempionatına ev sahibliyi edəcək. Eyni zamanda, aprelin 27-29-da Bakı şəhərində bədii gimnastika üzrə dünya kubokunun, iyunun 22-23-də isə yeniyetmələr arasında Olimpiya Oyunlarına idman gimnastikası üzrə təsnifat xarakterli yarışların təşkili planlaşdırılır. Beynəlxalq Gimnastika Federasiyasının ali orqanı olan Konqresin 82-ci iclasının dekabrda Azərbaycanın paytaxtı Bakıda keçirilməsi də nəzərdə tutulur.

Bu il Bakıda keçiriləcək digər böyük idman yarışları sırasında mayda kapoeyra idman növü üzrə və sentyabrda cüdo üzrə dünya çempionatları da var.

2018-ci ildə ölkəmiz üçün gözlənilən ən mühüm idman tədbirlərindən biri də Gənclər və İdman Nazirliyinin dəstəyi ilə noyabrda keçiriləcək Ümumdünya Antidopinq Agentliyinin (WADA) İcraiyyə Komitəsi və Təsisçilərin Ümumi Yığıncağı olacaq.

İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin gənclər və idman nazirlərinin dördüncü sessiyasının apreldə Bakıda həyata keçirilməsi də bu il gözlənilən tədbirlər sırasındadır.

Həmçinin 2018-ci ildə Azərbaycanda "Birinci Türk Universitetləri İdman Oyunlarının (Türk Universiadası)" təşkili nəzərdə tutulur.

Daha bir önəmli tədbiri də qeyd etmək mütləqdir - belə ki, dünyada ilk dəfə Xüsusi Olimpiya Komitəsinin Forumunun da bu il Bakıda təşkili planlaşdırılır.

# Gəncədə gələcəyin çempionu yetişir

Əgər biz övladlarımızın peşəkar idmançı kimi yetişməsini istəyiriksə, bunun heç də asan həyata keçmədiyini də anlamalıyıq. Bunun üçün əvvəlcə, uşaqları bu sahəyə düzgün istiqamətləndirməliyik ki, müsbət nəticə əldə edək. Əks halda uşaqlar həvəsdən düşər, idmana olan maraq azalar.

Mütəxəssislər bildirirlər ki, idmana olan həvəs yaşla üst-üstə düşməlidir. Ölkəmizdə idmana və bədən tərbiyəsinə olan diqqət və qayğı yüksək səviyyədədir. İdmançılarımızın uğurlarına hər birimiz sevinirik. Bu sevinci yaşamaq üçün əksər valideynlər övladlarını idman bölmələrinə aparırlar. Bu həm paytaxtda, həm də bölgələrdə vüsət alıb. Son dövrlərin statistikasına nəzər salsaq görərik ki, idmana böyük axın yaranıb. Xüsusilə də regionlarda.

Ölkənin ikinci böyük şəhəri olan Gəncə şəhərində də idmana olan maraq xeyli artıb. Gənc idmançılar da bu gün ölkəmizi müxtəlif yarışlarda uğurla təmsil edirlər. Gəncədə idmanın müxtəlif növləri üzrə bölmələr fəaliyyət göstərir ki, həmin bölmələrdə uşaqlar asudə vaxtlarını səmərəli keçirirlər. Həmin uşaqlardan biri də Ağamir Məmmədovdur. Yeniyetmə idmançımız budo döyüş növü ilə məşğul olur. 2009-cu il avqustun 30-da Gəncə şəhərində anadan olan Ağamir hazırda Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbin 3-cü sinifində təhsil alır. Valideynlərin dəstəyi ilə idmanın bu növünü seçən yeniyətmə budoçumuz bir sıra yarışlarda qüvvəsini sınayıb. O, məşqlərə həvəslə yanaşır, ona bəsələnilən ümidləri yarış arenalarında doğrultmağa çalışır.





Ağamir buyaxınlarda paytaxtımızda keçirilən budo döyüş növləri üzrə dünya kubokunun yarışında da 24 kq çəki dərəcəsində çıxış edib. Bakı İdman Sarayında keçirilən yarışda Ağamir Məmmədov fəxri kürsünün ən yüksək pilləsində yer alıb. Məlumat üçün bildirək ki, bu, onun ilk yarış sınağı deyil. Belə ki, yeniyetmə budoçu əvvəlki illərdə öz yaşdları arasında Qərb bölgəsinin çempionu olub.

"Olimpiya dünyası" qəzeti olaraq perspektivli idmançımıza gələcək yarışlarında uğurlar diləyirik. İnanırıq ki, Ağamir Məmmədov növbəti illərdə budo döyüş növlərində daha yüksək nəticələr əldə edib, bayrağımızı beynəlxalq arenalarda dalğalandıracaq.

*Anar Əhmədov*

## Bakı birinciliyinin qalibləri müəyyənləşib

Yeniyetmə boksçular arasında keçirilən açıq Bakı birinciliyi başa çatıb. Boks Mərkəzində təşkil olunan yarışda 150-dək idmançı qüvvəsini sınayıb. 4 gün davam edən yarışın yekununda ən güclülərin adına aydınlıq gəlib. 2002-2003-cü illər təvəllüdlü boksçular arasında təşkil olunan birincilikdə komanda hesabında "Rabitə" idman klubunun üzvləri bütün rəqiblərini qabaqlayıblar. İkinci pilləni "Qəbələ", üçüncü yeri "Neftçi" idman klubu tutub.

Qeyd edək ki, 14 çəki dərəcəsi üzrə keçirilən yarışda paytaxt klubları ilə yanaşı, 8 rayon komandası da qüvvəsini sınayıb.



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# "Pəhləvan" klubunda uşaq və gənclərin fiziki və mənəvi inkişafı üçün hər cür şərait var

***İnsanın özünü, öz maddi və mənəvi potensialını reallaşdıra bilməsi üçün ona, ilk növbədə, fiziki sağlamlıq lazımdır. "Sağlam bədəndə sağlam ruh olar" ifadəsi təsadüfən yaranmayıb. Doğrudur, bu fikri aksioma kimi qəbul etmək düzgün deyil. Yəni fiziki sağlamlıq insan mənəviyyatı üçün üçün kifayət deyil. Lakin sağlamlıq ən vacib şərtdir. Bu, təkcə idmançılara yox, bütün insanlara aiddir. İdman və bədən tərbiyəsinin yüksək sürətlə inkişaf etdiyi ölkəmizdə insanların sağlamlığı dövlət siyasətinin əsas istiqamətlərindən biridir.***

## İdman güclü vasitədir

Ölkəmizdə gənc nəslin fiziki inkişafına qayğı ilə yanaşılması hər birimizin ürəyincədir. Çünki fiziki cəhətdən sağlamlıq, həm də mənəvi keyfiyyətlərə sahib olmaq deməkdir. Fiziki və mənəvi cəhətdən sağlamlıq isə gənc nəslin vətənpərvər ruhda böyüməsinin əsasında durur. Azərbaycan müstəqillik əldə etdikdən sonra bütün fəaliyyət sahələri, o cümlədən idmanın inkişaf perspektivləri ciddi şəkildə nəzərə alınıb, ölkəmizin bütün bölgələrində idman kompleksləri, qurğular, meydançalar, iri idman sağlamlıq mərkəzləri yaradılıb. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi dövlətimizin əsas məqsədlərindən biridir. Şübhəsiz ki, keçmiş SSRİ dövründə də Azərbaycanın bədən tərbiyəsi və idman həyatı diqqət mərkəzində saxlanılıb. Xüsusilə 1970-1980-ci illərdə respublikamızda bu sahənin əhəmiyyətli maddi-texniki bazası yaradılıb, bədən tərbiyəsində kütləvilik əldə olunub. Amma müstəqillik illərində idman və Olimpiya Hərəkatının inkişafı xüsusi qayğı və nəzarətdə saxlanılır. Hazırda Azərbaycanın əksər şəhər, kənd və qəsəbələrində müasir tipli idman qurğuları fəaliyyət göstərir. Azərbaycan dövləti gənc nəslin fiziki sağlamlığını hər zaman ən vacib məsələ kimi diqqətdə saxlayır. Ümummilli lider Heydər Əliyev ölkə həyatının müxtəlif sahələrində əldə olunan nailiyyətlər sırasında idmançılarımızın beynəlxalq arenalarda qazandıqları uğurları xüsusi vurğulayaraq demişdir: "Biz bu gün müstəliq dövlətimizi qurarkən gələcək nəsillərimiz barədə düşünməliyik. Bizdən sonra gələn nəsillər fiziki cəhətdən daha da möhkəm, əqli cəhətdən daha da sağlam olsunlar. Biz buna nail olmaq üçün idmana, bədən tərbiyəsinə çox ciddi fikir verməliyik. İdman sahəsində beynəlxalq yarışlarda əldə olunan nailiyyətlər çox qiymətlidir. Onların qiyməti Azərbaycan xalqının təkcə fiziki cəhətdən yüksək keyfiyyətlərə malik olduğunu nümayiş etdirməkdən ibarət deyil, həm də müstəqil Azərbaycanı dünyada tanıtmaqdan ibarətdir".

Ölkəmizdə idman yüksələn xətlə inkişaf edir. Paytaxt və bölgələrdə fəaliyyət göstərən Olimpiya idman kompleksləri və digər idman ocaqlarında hər cür şərait yaradılıb. Dövlətimizin bu sahəyə göstərdiyi xüsusi qayğı öz bəhrəsini verir. İdmançılarımız beynəlxalq yarışlarda yüksək nəticələr əldə edir, bayrağımızı qaldırır, himnimizi səsləndirirlər. Azərbaycan beynəlxalq idman yarışlarına ev sahibliyi etməkdə yüksək təşkilatçılıq bacarığı ilə seçilir.

## "Pəhləvan" idman klubu güləşin kütləviliyinə xidmət edir

Müxtəlif növlər üzrə keçirilən beynəlxalq yarışlarda əldə olunan nailiyyətlərdə idman klublarının və cəmiyyətlərinin də xüsusi rolu var. "Pəhləvan" Respublika İdman Klub İctimai Birliyi də bu sahənin inkişafında xüsusi pay sahibidir. İdman ocağı öz fəaliyyətini təkcə idmanda uğurların əldə olunmasına deyil, həm də gənclərin mənəvi cəhətdən inkişafına yönəldib. Peşəkar idmançıların yetişməsində önəmli rol oynayan "Pəhləvan" idman klubu 1978-ci ildə güləş növləri üzrə Respublika Uşaq-Gənclər İdman Məktəbi (RUGİM) kimi fəaliyyət göstərib. Məktəbin yetirmələri yarışlarda yaxşı nəticələr əldə etməyə müvəffəq olublar. 1992-ci ilə qədər RUGİM peşəkar idmançıların yetişməsində zəngin fəaliyyət göstərib. Avropa və dünya çempionatlarında yüksək nəticələrə nail olmuş idmançılar respublikanın idman şərəfini layiqincə qoruyublar. Keçmiş SSRİ, dünya və Avropa çempionatlarında ən yüksək nəticələrə nail olmuş idmançılar - Nazim Əlicanov, Qırxlar Bədəlov, İlham Abbasov, Azər İsayev, Nadir Həmidov, Asəf Hacıyev, Emin Mirzəyev, Müşfiq Cəfərov, Səhliman Ağayev, Bəxtiyar Hacıyev, Ramin İbrahimov və digər titullu idmançılar məhz RUGİM-in təmsilçiləri olublar. 1992-ci ilin sentyabr ayında klubun əsasnaməsi Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. Beləliklə, RUGİM-in bazasında "Pəhləvan" Respublika İdman Klubu yaradılıb. İlk dövrlərdə müstəqil fəaliyyət göstərən bu klubda 4 idman növü inkişaf etdirilib: yunan-Roma güləşi, sərbəst güləş, cüdo və sambo. Həmin vaxtlar yunan-Roma və sərbəst güləş növləri üzrə bölmələr Bakı şəhəri il yanaşı, respublikamızın 14 rayonunda fəaliyyət göstərirdi. Fəaliyyət göstərdiyi bu illər ərzində klub çoxlu sayda əməkdar idman ustası hazırlayıb. 2015-ci ildə "Pəhləvan" respublika idman klubu İctimai Birlik kimi qeydiyatdan keçib. Buyaxınlarda klubun sədri, Fəxri Bədən tərbiyəsi və İdman işçisi İsmayıl Əliyevlə görüşdük. Müsahibimizlə klubun fəaliyyəti, gələcək planları və qazanılan nailiyyətlər barədə söhbət etdik.



Klubun sədri İsmayıl müəllim, əvvəlcə, bizə 2017-ci ilin "Pəhləvan" klubunun idmançıları üçün uğurlu nəticələrlə yadda qaldığını bildirdi. O, söhbət zamanı, həmçinin klubda yeni perspektivli gənclərin yetişdiyini və onlar üçün lazımi şəraitin yaradıldığını vurğuladı: "1992-ci ildən bu günə qədər "Pəhləvan" klubu Olimpiya idman növü kimi sərbəst, yunan-Roma, qeyri-Olimpiya idman növü sayılan sambo güləş növlərini inkişaf etdirir. Bu müddət ərzində klubumuz bir sıra peşəkar idmançıların yetişməsində səmərəli xidmət göstərib. "Pəhləvan" idman klubunun nəticələri ildən-ilə artır. 2017-ci ili uğurlu nəticələrlə başa vurduq. İdmançılarımız beynəlxalq turnirlərdə, respublika və Bakı birinciliklərində iştirak edərək, uğurlu nəticələr əldə etdilər. Yetirmələrimiz, demək olar ki, ötən il ölkədaxili yarışların hər birində qüvvələrini sınadılar. Elə bir turnir yoxdur ki, "Pəhləvan" klubunun yetirmələri həmin yarışdan özlərini sınamasınlar. Fikrimcə, idmançılarımız belə yarışlarda nə qədər çox iştirak edərlərsə, o qədər də çox təcrübə qazanarlar. Belə yarışlar yeniyetmə və gənc pəhləvanlarımızın hazırlıq səviyyəsinin artmasında, onlarda özünəinamın yaranmasında müsbət rol oynayır. İnanırıq ki, 2018-ci il də yetirmələrimiz üçün uğurlu olacaq. Klubda gənc və perspektivli idmançılar yetişir. Həmin idmançılar təqvim planına əsasən, yığma komandanın heyətində nəzərdə tutulmuş beynəlxalq və respublika turnirlərində qüvvələrini sınayacaqlar. Yetirmələrimizdən bu il də uğurlu nəticələr gözləyirik.

Qeyd etdiyim kimi, hazırda klubumuzda yunan-Roma, sərbəst güləş və sambo bölmələri fəaliyyət göstərir. Klubda üç idman növü üzrə 521 yeniyetmə və gənc idmanın sirlərinə yiyələnir. Onlarla ümumilikdə, 17-dən çox məşqçi-müəllim məşğul olur. Məşqçilərimizdən Akif Əliyev (yunan-Roma güləşi), Ruslan Şamilov (sərbəst güləş), Mübariz İbrahimov (sambo) Əməkdar məşqçi adına layiq görülüblər. Məşqçilər idmançıların fiziki, texniki, taktiki hazırlıqlarının artırılmasında böyük səy göstəririlər. Kluba əsasnaməyə görə, 10 yaşından yuxarı uşaqlar cəlb olunurlar. Bəzi hallarda fiziki hazırlıqları yüksək olan istedadlı uşaqları 8-9 yaşlarından qəbul edirik. İdmançılarımız AHİTA-nın zalında, Binədə yerləşən 136 saylı orta məktəbin idman zalında və Sulutəpədə yerləşən zallarımızda məşğul olurlar. Vaxtilə klubda Yaqub Məmmədov, Vahid Məmmədov, Namiq Abdullayev, Nazim Hüseynov, Ceyhun Məmmədov kimi idmançılar məşğul olublar. Hansı ki, bu idmançılar Azərbaycanın fəxridirlər. Əsas məqsədimiz yenidən onlar kimi təcrübəli idmançılar yetişdirmək, həmçinin yeniyetmə və gənclərimizi sağlam idmana cəlb etməkdir. Bunun üçün bütün bacarıq və imkanlarımızı səfərbər etmişik və edəcəyik. "Pəhləvan" idman klubu hər zaman güləş növlərinin kütləviliyinin artırılmasına öz töhfəsini verib. Həmin iş bu gün də uğurla davam etdirilir", - deyə İsmayıl Əliyev qeyd edib.

## "Çalışırıq ki, yetirmələrimiz həm də vətənpərvərlik ruhunda böyüsünlər"

"Pəhləvan" İdman Klubunun yetirmələri həm yerli, həm də beynəlxalq yarışlarda iştirak edərək yüksək nəticələr qazanırlar. Klubun yetirməsi Cavid Feyziyev dünya birinciliyində 100 kq çəki dərəcəsində II yeri tutub. O, 2014-cü ildən idman ustasıdır. Dünya və Avropa birinciliklərində mühüm uğurlara nail olan Kərim və Kənan Cəfərov qardaşları 2013-cü ilədək bu klubu təmsil ediblər. Respublikamızda güləş idman növünün inkişaf etdirilməsində böyük xidmətləri olan klub bu gün də səmərəli fəaliyyətin davam etdirir. Klubda güləşçilər üçün yaradılan lazımi şərait idmançılar qələbə qazanmaq üçün stimul verir. Təbii ki, ayrı-ayrı idman növləri ilə məşğul olan uşaqların mənəvi tərbiyəsi də diqqət mərkəzində saxlanılır. Təcrübəli mütəxəssis İsmayıl Əliyev bizimlə söhbətində klubun yetirmələrinin açıq birinciliklərdə uğurla çıxış etdiklərindən danışdı:"Klubumuz hər il ənənəvi olaraq müxtəlif idman növləri üzrə açıq klub çempionatı təşkil edir. Keçirdiyimiz açıq birinciliklərdə paytaxtın 15-ə yaxın klub və cəmiyyətləri qüvvəsini sınayır. Hətta elə olur ki, bölgələri təmsil edən komandaların yetirmələri də bu yarışlarda bacarıqlarını nümayiş etdirirlər. Bu il də "Pəhləvan" idman klubunun güləş üzrə açıq birinciliyini təşkil etməyi planlaşdırırıq. Builki yarışda çoxlu sayda komandanın iştirak edəcəyi gözlənilir. Hər il keçirdiyimiz daxili turnirlərdə yüzlərlə yeniyetmə yunan-Roma, sərbəst güləş, sambo idman növləri üzrə yarış təcrübəsi qazanırlar.

Klubumuzun iki üzvü bu il Argentinanın paytaxtı Buenos-Ayresdə təşkil olunacaq Yeniyetmələrin Olimpiya Oyunlarında yunan-Roma və sərbəst güləş növlərində qüvvələrini sınayacaqlar. İnanıram ki, pəhləvanlarımız bu yarışlarda da qələbələri ilə bizləri sevindirəcəklər. Biz çalışırıq ki, yetirmələrimiz həm də vətənpərvərlik ruhunda böyüsünlər. Biz istəyirik ki, "Pəhləvan" idman klubunda müxtəlif növlərin sirlərinə yiyələnən yeniyetmələr ictimai həyatda da aktiv olsunlar, vətənimizi sevsinlər. Burada idmanla məşğul olan uşaqlar həm tərbiyəli, əxlaqlı böyüyür, həm də vətənini, xalqını sevən bir vətəndaş kimi yetişir. Düşünürəm ki, klubumuz qarşıya qoyulan məqsədə nail olub və bundan sonra da bu istiqamətdə fəaliyyətini davam etdirəcək. Adını çəkdiyiniz "Pəhləvan" idman klubu hər zaman gənclərin qayğısına qalıb və onların əsl insan, vətəndaş kimi tərbiyə olunmasında əlindən gələni əsirgəməyib".

## Klubun idmançıları uğurları ilə seçilirlər

"Pəhləvan" Respublika İdman Klubu İctimai Birliyinin idmançıları 2017-ci ili uğurlu nəticələrlə başa vurublar. Belə ki, klubun yetirmələri geridə qalan il ərzində uğurlu çıxışları ilə fərqləniblər. İdman ocağının yunan-Roma güləşçisi Şəmistan Quluzadə (75 kq) ötən il Azərbaycan çempionatında üçüncü yeri tutub. Klubun digər yunan-Roma güləşçisi Elmir Əliyev yanvarın 14-15-də Bakıda keçirilən güləş üzrə beynəlxalq turnirin çempionu adına layiq görülüb. Klubun aparıcı idmançısı Cavid Feyziyev fevralın 23-25-də güləş üzrə gənclər arasında keçirilən Azərbaycan birinciliyində və dekabr ayında isə böyüklər arasında Azərbaycan çempionatında qızıl medala sahib olub. Perspektivli idmançı aprel ayında keçirilən AGF kubokunda da birinci yeri tutub. Elə həmin ay keçirilən güləş üzrə Azərbaycan birinciliyi də idman ocağının komandası üçün uğurlu olub. "Pəhləvan" İK-in yetirməsi Elmir Əliyev üçüncü yerə sahib çıxıb. Elmir Əliyev İranda təşkil olunan beynəlxalq turnirdə daha uğurla yarışaraq ölkəmizə qızıl medal qazandırıb. Noyabrın 25-26-da təşkil olunan respublika turnirində klubun yunan-Roma güləşçilərindən Emin Cavadlı (26 kq) ikinci, Məhəmməd Qasımzadə (35 kq) üçüncü oldular. Yeniyetmələr arasında keçirilən ölkə birinciliyində isə klubun yetirmələrindən Orxan Soltanlı (32 kq) və Məhəmməd Qasımzadə (35 kq) bürünc medala layiq görülüblər.

"Pəhləvan" İK-in sərbəst güləşçiləri də qazandıqları uğurları ilə yunan-Roma güləşçilərindən geri qalmayıblar. İdman ocağının pəhləvanlarından Cavid Sadıqov AGF kubokunda üçüncü yerə sahib çıxıb. Klubun digər sərbəst güləşçisi Adəm Cəlilov Azərbaycan çempionatının gümüş medalına yiyələnib.

Klubun samboçuları da ötən ili uğurlu nəticələrlə başa vurmağa müvəffəq olublar. Yeniyetmələr arasında təşkil olunan Azərbaycan birinciliyində idman ocağının samboçusu Səməd Əliyev 48 kq çəki dərəcəsində ikinci yeri tutub. Gənclərin Azərbaycan çempionatında Zöhrab Qurbanov (82 kq) ikinci, Şakir İsmayılov (52 kq) isə üçüncü yerə layiq görülüblər. Sambo üzrə keçirilən Azərbaycan kubokunda klubun təcrübəli idmançısı Məhərrəm Zeynalov (100 kq) isə aktivinə bürünc medal yazdırıb.



## "Yüksək nəticələr qazanmaq üçün lazımi şəraitimiz var"

Klubun sədri İsmayıl Əliyev hesab edir ki, qazanılan bu nəticələr idmançılara yüksək şəraitin yaradılması sayəsində mümkün olub: "Ölkəmizdə idman sahəsinə göstərilən dövlət qayğısı bizim klubu da əhatə edir. Yüksək nəticələr qazanmaq üçün lazımi şəraitimiz var. Məhz buna görədir ki, beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil edə bilirik. Şübhəsiz ki, medal qazanmaq üçün idmançı və məşqçinin qarşılıqlı əlaqəsi, onlar arasında düzgün münasibətlərin qurulması çox vacibdir. İdmançı istənilən yarışa psixoloji cəhətdən hazır olmalı, məşq proqramlarının tələbinə əməl etməlidir. Məşqin əsas komponentlərindən biri onun hazırlıq hissəsidir. Məşqçilər və idmançılar məşqin bu hissəsindən lazımınca istifadə etməlidirlər ki, yüksək nəticə qazanmaq mümkün olsun. Hazırlıq hissəsinin hesabına möhkəmlənmək, cəld, güclü, dəqiq, qətiyyətli və əzmkar olmaq mümkündür. Bu baxımdan, məşqin hazırlıq hissəsi daha ciddi yanaşma tələb edir. Təcrübəli məşqçilər çox yaxşı bilirlər ki, hazırlıq hissəsinin köməyi ilə nəinki orqanizmi, hətta beyni yarışa və məşqə hazırlamaq olar. Bu, psixoloji amillə çox bağlıdır. Elə idmançılar var ki, özünü yaxşı hiss etdikdə çıxışa tam hazır olduğunu hiss edirlər.

Bir müddət məşqdən qalan idmançı nadir hallarda qarşıdakı dövr haqda düşünür. O, əsasən, fiziki məşğələlərə aidiyyatı olmayan işlərlə maraqlanır. Buna görə də sonradan məşqlərə başladığı günlərdə onların əksəriyyətində psixoloji problemlər olur. Belə idmançılar diqqət mərkəzində olmalıdırlar. Məşqçi psixoloji problemlərlə üzləşən yetirməsi ilə fərdi şəkildə məşğul olmalıdır. Qarşıya çıxan problemlərin aradan qaldırılması, məşqçinin xüsusi qayğısı idmançını ruhlandırır, onu əzmkar mübarizəyə həvəsləndirir. Ümumiyyətlə, insan idmanın müxtəlif növləri ilə məşğul olmaqla öz iradəsinin möhkəmliyini artıra, özündə mətanətli və inadlı olmaq, çətinliyi aradan qaldırmaq bacarığını və başqa keyfiyyətləri inkişaf etdirə bilər. Sözsüz ki, bu keyfiyyətlərin yaradılması prosesində onlara düzgün istiqamət verilməlidir. Aydın bir istiqamət olmasa, bədən tərbiyəsi məşğələləri gənclərimizin xarakterində mənfi keyfiyyətlərin əmələ gəlməsinə səbəb ola bilər. Deməli, gənclər arasında bədən tərbiyəsi sahəsində aparılan iş çox mühüm və məsuliyyətli bir işdir. Bu, məşqçi-müəllimlərdən öz işlərinə böyük məsuliyyətlə yanaşmağı tələb edir. Hər bir idman məşqçisi, hər bir bədən tərbiyəsi müəllimi məşğələləri elə qurmalıdır ki, uşaq və gənclər yalnız bədəncə deyil, zehni cəhətdən də inkişaf etsinlər. Bədən tərbiyəsi müəllimləri və idman məşqçiləri üzərlərinə düşən vəzifələri düzgün yerinə yetirəndə bəhrəsi də yaxşı olur. Əks halda onların çəkdiyi əziyyətin heç bir xeyri olmayacaq".

"Pəhləvan" respublika idman klubunda apardığımız müşahidələrə əsasən bir daha əmin olduq ki, burada uşaq və gənclərin fiziki və mənəvi inkişafı üçün hər cür şərait var. Əldə olunan nəticələr bir daha sübut edir ki, bu idman ocağında bacarıqlı, təcrübəli məşqçilər fəaliyyət göstərir. Onlar burada müxtəlif idman növləri ilə məşğul olan yeniyetmələrin fiziki sağlamlığı ilə yanaşı, mənəvi tərbiyəsinin də qayğısına qalırlar. Diqqət və qayğı olan yerdə kütləviliklə bərabər, yüksək idman nəticələri də əldə etmək mümkündür.

***Azər Əlizadə***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# FUTBOL



## U-21 Antalyada 4 yoldaşlıq görüşü keçirəcək

21 yaşınadək futbolçulardan ibarət Azərbaycan millisi Türkiyənin Antalya şəhərində təlim-məşq toplanışına start verib. Yanvarın 27-dək davam edəcək hazırlığa yeni baş məşqçi Rəşad Sadıqov 26 futbolçu dəvət edib.

Baş məşqçi ölkə xaricindən yalnız iki futbolçu çağırmağı məsləhət bilib. Bunlardan biri əvvəllər də aşağı yaş qrupları üzrə millilərə dəvət olunmuş Murad Xaçayevdirsə, digəri Ozan Can Kökcüdür. 24 oyunçu isə yerli klubları təmsil edir. Toplanışda "Neftçi" daha çox 5 futbolçu ilə təmsil olunub. "Sumqayıt" 4, "Keşlə" 3 üzvünü U-21-ə ezam edib. Rəşad Sadıqov "Qarabağ", "Qəbələ", "Səbail", "Zirə" və "Kəpəz"dən yalnız iki futbolçunu toplanışa çağırıb.

Təlim-məşq toplanışı zamanı millimiz 4 yoldaşlıq görüşü keçirəcək. Gənclərdən ibarət yığmamız yanvarın 16-da, Bakı vaxtı ilə saat 17:00-da "Alanyaspor"un U-21 komandası ilə qarşılaşacaq.

Rəşad Sadıqovun yetirmələrinin növbəti rəqibi Albaniya yığması olacaq. Millimiz bu ölkənin U-21 komandası ilə 2 dəfə üz-üzə gələcək. Bu matçlar yanvarın 21-də və 26-da olacaq. U-21 yanvarın 23-də isə Gürcüstanın müvafiq yaş qrupundan ibarət yığması ilə üz-üzə gələcək. Hər üç oyun Bakı vaxtı ilə saat 19:00-da başlayacaq.

## "Qarabağ"ın bütün rəqibləri bəlli oldu

"Qarabağ" klubu Antalyada təlim-məşq toplanışını davam etdirir. Son çempion hazırlıq zamanı 6 yoxlama oyunu keçirəcək. Ağdamlıların bütün rəqibləri və bu oyunların keçiriləcəyi tarixlər artıq məlum olub. Ağdam təmsilçisinin ilk matçı yanvarın 17-nə təsadüf edəcək. Təmsilçimiz Rusiyanın "Kuban" klubu ilə qarşılaşacaq. Qurban Qurbanovun yetirmələri yanvarın 20-də Polşanın "Lexiya" klubu ilə görüşəcək.

Yanvarın 25-də isə iki oyun olacaq. Həmin gün, əvvəlcə, Makedoniyanın "Şkupi", daha sonra isə Ukraynanın "Mariopul" klubları komandamıza rəqib olacaq.

"Qarabağ" beşinci sınağını Bosniya və Hersoqovinanın "Sarayevo" klubuna qarşı keçirəcək. Son yoxlama matçında isə fevralın 3-ü Monteneqronun "Mladost" klubu təmsilçimizə rəqib olacaq.

## Təmsilçimiz "Barselona" və PSJ klubları ilə eyni turnirdə

"Qəbələ"nin 16 yaşınadək futbolçulardan ibarət komandası iyunda beynəlxalq turnirə qatılacaq. Praqada təşkil ediləcək "Ulduzlar Kuboku-2018"in bəzi iştirakçıları artıq müəyyənləşib.

"Qəbələ" ilə yanaşı, Avropa nəhəngləri "Barselona", PSJ, "Porto", "Beşiktaş" və "Zenit"in də 2002-ci il təvəllüdlü futbolçularının turnirdə yarışacaqları artıq dəqiqləşib. Digər 10 komandanın kimliyi isə hələ bəlli deyil. Bütün iştirakçılar bilindikdən sonra püşkatma mərasimi keçiriləcək və qrupların tərkibləri müəyyənləşəcək.

Qeyd edək ki, "Ulduzlar Kuboku-2018" turniri 15-17 iyun tarixlərində təşkil olunacaq.



## *"Qanım "Qarabağ"ı sevən və onun uğrunda həyatını itirən insanlarla axacaq"*

"Qarabağ" klubu Dino Ndlovunu Çinin "Xançjou Qrintaun" komandasına transfer edib. CAR millisinin üzvü asiyalılarla 2 illik müqavilə imzalayacaq. Transfer Ağdam təmsilçisinə 750 min avro qazandırıb.

Bu səbəbdən futbolçu "Qarabağ"la birlikdə təlim-məşq toplanışı üçün Antalyaya yollanmayıb. O, CAR-ın paytaxtı Yoxannesburqdan birbaşa Çinə uçub.

Transfer məsələsi həll olunduqdan sonra hücumçu sosial şəbəkədə status paylaşıb. O, "Qarabağ" azarkeşləri ilə vidalaşaraq, Ağdam klubunda karyerasının ən gözəl dövrünü keçirdiyini vurğulayıb: "Karyeramı "Qarabağ" klubunda başa vuracağımı düşünürdüm. Ancaq bu, arzu idi. Hər kəsə təşəkkür edirəm. Bu klubda çox yaxşı 18 ay keçirdim, komanda ilə tarix yazdım. Həmin müddət karyeramın unudulmaz anları idi. Məşqçilərə, komanda yoldaşlarıma minnətdaram. Azərbaycanda çoxlu yaxşı insan tanıdım. Karyeramda ən çətin qərarlardan birini verdim. Qanım "Qarabağ"ı sevən və onun uğrunda həyatını itirən insanlarla axacaq. Yenidən görüşənədək. Sizi sevirəm".

"Qarabağ"ın polşalı müdafiəçisi Yakub Jezniçak da Dinonun klubdan getməsinə biganə qalmayıb. O, sosial şəbəkədə Ndlovu ilə birlikdə şəkillərini paylaşaraq, bu sözləri yazıb: "Kopenhagen"ə vurduğun qola görə təşəkkür. Uğurlar".

Qeyd edək ki, Dino Ndlovu "Qarabağ"a 2016-cı ilin yayında transfer olunmuşdu. O, Ağdam təmsilçisinin heyətində meydana çıxdığı 54 oyuna 20 qol vurub, 7 məhsuldar ötürmə ilə yadda qalıb.

## "Ağ-qaralar" itirə-itirə gedir

"Neftçi"nin hücumçusu Uqo Barqasın aqibətinə rəsmən aydınlıq gəlib. Fransalı futbolçu karyerasını "Bluminq"də davam etdirəcək. Əvvəlcə, Barqasın razılığını alan Boliviya təmsilçisi "Neftçi" ilə də ortaq məxrəcə gəlib. "Ağ-qaralar"la müqaviləsinə xitam veriləcək Barqas Boliviyaya yollanaraq, yeni komandası ilə rəsmi müqaviləyə qol çəkəcək.

"Bluminq" Barqas üçün yad komanda deyil. Belə ki, 31 yaşlı hücumçu ötən il "Neftçi"yə məhz bu klubdan keçmişdi. Bundan başqa, o, 2012/2013-cü illər mövsümündə də "Bluminq"in formasını geyinib.

Uqo Barqas "Neftçi"də ümumilikdə 30 oyunda 7 qola imza atıb.

Qeyd edək ki, "Neftçi" qış fasiləsində Barqasdan əvvəl 9 futbolçu - Pavel Dreksa, Rahil Məmmədov, Aqşin Qurbanlı, Fəhmin Muradbəyli, Məqsəd İsayev, Maksim Vaylo, Təyyar Məmmədov, Tərzin Cahangirov və Edson Kastilyo ilə yolları ayırıb.

Yeri gəlmişkən, komandadan ayrılanlarla yanaşı, heyətə yeni futbolçular cəlb edilir. Klubun mətbuat xidmətindən aldığımız məlumata görə, "Keşlə"dən ayrılan İlkin Qırtımov "ağ-qaralar"la müqavilə imzalayıb. Onunla növbəti mövsümün sonunadək müqavilə bağlanıb.

Qeyd edək ki, 27 yaşlı futbolçu milli komandanın heyətində 5 oyun keçirib.

## "Rauf Əliyevlə müqavilə bağlamaq istəyirik"

***"Keşlə" klubunun yeni baş məşqçisi Yuri Maksimov "Qaradağ-Lökbatan"la yoldaşlıq matçından sonra jurnalistlərə müsahibə verib. Ukraynalı mütəxəssis komandanın hazırkı durumundan və gələcək planlarından danışıb.***

***- 3:1 hesabı ilə qələbə qazandınız. Oyun barəsində fikirlərinizi bilmək istərdik.***

- Nəticə əhəmiyyət kəsb etmirdi. Bu, toplanışın əvvəlidir. Əsas məqsəd baxışda olan futbolçuları sınamaq idi. Yəni oyunun nəticəsinə o qədər də ciddi yanaşmırdıq.

***- Topaz Premyer Liqasında debüt edəcəksiniz. Çempionatın ikinci yarısı barədə planlarınız nədir?***

- Azərbaycan futbolçuları çox texnikalıdırlar. Onların bir mənfi xüsusiyyəti var ki, mübarizə aparıb, top almağa həvəsli deyillər. Amma görürəm ki, futbolçular istəsələr bunu da bacararlar. Daha aqressiv oynamaq lazımdır. Düşünürəm ki, iş prosesində bütün bunları qaydasına salacağıq.

***- Komandanın turnir cədvəlindəki durumu o qədər də yaxşı deyil. "Keşlə" rəhbərliyi qarşınıza hansı məqsədləri qoyub?***



- Qarşıma müəyyən məsələ qoyulub. Məsələyə fərqli yanaşıram. Əsas futbolçuların yaxşı oynamasıdır. Heyətdəki futbolçulardan hansının bizə kömək edə biləcəyini araşdıracağıq və transferlər edəcəyik. Ən əsası odur ki, oyun planında dəyişikliklər olsun. Futbolçular müsbət istiqamətə dəyişsin və qələbəyə oynasınlar.

***- Baxışda olan futbolçular barəsində nə deyə bilərsiniz?***

- Bəziləri bizə uyğun gəlir, bəziləri isə yox. Amma indidən bu haqda danışmaq tezdir. Köməkçilərimlə hər gün onları izləyir, baxırıq. Müəyyən olunmuş məbləğə futbolçular axtarırıq. Əsas odur, hər bir məşqçinin istədiyi kimi, öz oyun sistemimiz olsun. Bəzi mövqelərdə isə yerli oyunçuları transfer etməyi düşünürük.

***- Yığmamızın futbolçusu Rauf Əliyevlə bağlı fikirləriniz necədir?***

- Onun haqda çox yaxşı fikirdəyəm. Rauf Əliyevin komandadan düzgün ayrılmayıb, çətin vəziyyətdə qoyduğuna görə bir az inciklik var. Amma məsələni həll edəcəyik. Bütün komanda, rəhbərlik onun qayıtmasını istəyir. Rauf Əliyevlə müqavilə bağlamaq istəyirik. Lakin o, yarım illik qayıtmaq istəyir. İndi hər şey ondan asılıdır. Biz onu komandada görmək istəyirik.

***Rahib Sahiboğlu***



## Transfer xəbərləri

### I Divizion təmsilçisində daha iki futbolçu

"Xəzər" klubu qış fasiləsində növbəti transferlərini reallaşdırıb. I Divizion təmsilçisi Bəxtiyar Soltanov və Novruz Məmmədovu heyətinə cəlb edib. Əldə olunmuş razılığa əsasən, mövsümün ilk yarısını "Binə"də keçirmiş Bəxtiyarla ilyarımlıq, "Kəpəz"dən ayrılan Novruzla mövsümün sonuna qədər müqavilə imzalanıb.

Qeyd edək ki, "Xəzər" qış fasiləsində buna qədər Tanrıverdi Məhərrəmli, Ramil Həsənov və Aydın Qasımovu heyətə cəlb edib.

### Gəncə klubunun yeni transferi kimdir?

"Kəpəz" qış "transfer pənrəcəsi" dövründə daha bir futbolçunun transferini reallaşdırıb. Gəncə klubu "Qəbələ"dən Roman Hüseynovu heyətinə cəlb edib. Gənc yarımmüdafiəçi bir illik icarəyə götürülüb.

Qeyd edək ki, bu, Gəncə təmsilçisinin qış fasiləsində 4-cü rəsmi transferidir.

### Dəniz Yılmaz yeni klubla müqavilə bağladı

Azərbaycan millisinin hücumçusu Dəniz Yılmazın yeni komandasının adına aydınlıq gəlib. Türkiyə mətbuatının yaydığı məlumata görə, 29 yaşlı hücumçu karyerasını elə bu ölkədə davam etdirəcək.



Belə ki, bursalıların çoxdandır transferə çıxardıqları oyunçu "Gənclərbirliyi" ilə ortaq məxrəcə gəlib. Superliqada qalmaq uğrunda mübarizə aparan "Gənclərbirliyi" yığmamızın üzvü ilə 1,5 illik müqavilə bağlayıb.

Qeyd edək ki, Dəniz Yılmaz "Bursaspor"a 2016-cı ildə "Trabzonspor"dan keçmişdi.

### Kolumbiyalı futbolçu "Barselona"da

"Barselona" qış transfer dönəmində ikinci keçidini reallaşdırıb. AS nəşrinin yaydığı məlumata görə, kataloniyalılar Filip Koutinyodan sonra "Palmeyras"ın müdafiəçisi Yerri Minanı da heyətə cəlb ediblər.

24 yaşlı futbolçu ilə çoxdan anlaşan İspaniya nəhəngi, nəhayət ki, onun klubunu da razı salıb. Braziliya təmsilçisi bu keçiddən 11,8 milyon avro gəlir əldə edib. Kolumbiya millisinin üzvü isə yeni klubu ilə 5,5 illik müqaviləyə qol çəkib. Müqavilədə mərkəz müdafiəçisinin transfer dəyəri 100 milyon avro göstərilib.

Qeyd edək ki, Yerri Mina 2016-cı ildən dəvət aldığı Kolumbiya yığmasının heyətində 9 oyun keçirib, 3 qola imza atıb.

### Afrikanın ən bahalı futbolçusu Çinə getdi

"Vilyareal"ın hücumçusu Sedrik Bakambu Çinə köçməyə hazırlaşır. Fransanın nüfuzlu "Equipe" nəşrinin yaydığı məlumata görə, konqolu futbolçu "Beijinq Qoan" klubu ilə müqavilə bağlayıb.



Hücumçu artıq Çində tibbi baxışdan keçib. "Vilyareal" transferdən 40 milyon avro qazanacaq. Amma Bakambu çinlilərə vergilərlə birlikdə 74 milyon avroya başa gələcək.

Bu isə onu ən bahalı afrikalı futbolçu statusuna qaldırıb. Sedrik özü illik 18 milyon avro qazanacaq.

Qeyd edək ki, bu keçidə qədər ən bahalı afrikalı oyunçu "Leypziq"dən "Liverpul"a 56 milyon avroya transfer olunan qvineyalı Nabil Keyta idi.

## *"Fərid Nəbiyev "Slaviya"nın lideri olacaq"*

"Komandaya xeyli yeni oyunçu gəlib ki, onlar arasında əcnəbilər də var. Heyətdə 10 millətdən futbolçu çıxış edir". Bu sözləri "Slaviya"nın gənclərdən ibarət komandasının baş məşqçisi Pavel Rehak deyib.

Klubun rəsmi saytına müsahibə verən təcrübəli mütəxəssis yayda "Qəbələ"dən bu komandaya keçən Fərid Nəbiyev haqda da fikir bildirib.

O, gənclər millimizin yarımmüdafiəçisi və digər yeni gələnlərin uyğunlaşma vaxtı keçirdiklərini söyləyib: "Bizim ehtiyat qüvvəmiz çoxdur. Yeni futbolçular fərqli mühitdən gəliblər. Hərdən mənə elə gəlirdi ki, uşaqlar topu özlərində çox saxlayır və fərdi oyuna üstünlük verirlər. Topu itirdikdən sonra reaksiya göstərməkdə gecikirdilər. Bir daha qeyd etməliyəm ki, yeni gələnlər başqa mühitə öyrəşdiklərindən, bizim ab-havaya uyğunlaşmalıdılar. Çoxu Balkan ölkələrindəndir. Yalnız Fərid Nəbiyev Azərbaycandan gəlib".

Həmyerlimizin tərifləyən P. Rehak komandanı onun üzərində quracağını da vurğulayıb: "Gənclər Liqasındakı yerimizi qorumaq istəyirik. Bu, bizim məqsədimizdir. Oyunumuzu getdikcə daha da yaxşılaşdırmalıyıq. Söz verirəm ki, hazırkı futbolçular qışda fiziki formalarını yaxşılaşdırıb, daha hazır vəziyyətdə olacaqlar. Biz qışa qədər iki səbəbə görə bəzi oyunlarda məğlub olurduq. Biri təcrübəsizlik, digəri isə fiziki çatışmazlıqdır. Fikrimcə, hazırkı heyətdə bəzi futbolçular çox istedadlıdırlar. Bu mənada Andrey Sintean və Fərid Nəbiyevi fərqləndirə bilərəm. Düşünürəm ki, onlar komandanın liderləri olacaqlar və oyunu bu futbolçuların üzərində quracam".

Qeyd edək ki, Fərid Nəbiyev "Qəbələ" Futbol Akademiyasının yetirməsidir.

İdman klublarında



***Bu gün ölkəmizdə idmanın inkişafı geniş vüsət alıb. Gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam böyüməsi günümüzün vacib məsələlərindəndir. Azərbaycanda hər sahədə olduğu kimi, idman sahəsində də son dövrlərdə yüksək nailiyyətlər əldə olunub. Ölkəmizdə idmana dövlət səviyyəsində xüsusi diqqət və qayğı göstərilir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan idman siyasəti Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Bu qayğının nəticəsidir ki, Azərbaycan dünyada idman ölkəsi kimi tanınıb. Beynəlxalq turnirlərdə iştirak edən təmsilçilərimiz istər Olimpiya, istərsə də qeyri-Olimpiya idman növləri üzrə yüksək uğurlar qazanırlar.***

# “Olimpiya” Peşəkar Döyüş Klubunun əsas məqsədi ölkəmizdə idmanın inkişafına töhfə verməkdir

Bu idmançıların yetişdirilməsində ən böyük məsuliyyət sözsüz ki, fəaliyyət göstərən klubların üzərinə düşür. Çünki perspektivi və idmana marağı olan gənclər məhz belə klublarda yetişir, gərgin əmək sayəsində beynəlxalq arenalarda öz sözlərini deyirlər. Hazırda paytaxt və ölkəmizin regionlarında kifayət qədər idman klubları fəaliyyət göstərir ki, çempionların yetişdirilməsi istiqamətində bu idman ocaqlarının əhəmiyyəti danılmazdır. Ölkəmizdə müxtəlif döyüş növlərinin inkişafına öz töhfəsini verən idman ocaqlarından biri də Bakı Olimpiya Stadionunda (BOS) fəaliyyət göstərən “Olimpiya” Peşəkar Döyüş Klubudur.

“Olimpiya” Peşəkar Döyüş Klubu 2017-ci il noyabrın 3-də fəaliyyətə başlayıb. Klubun açılış mərasimində



Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, nazirliyin idman şöbəsinin müdiri, Olimpiya çempionu Fərid Mansurov, Azərbaycan Kikboksinq Federasiyasının prezidenti, millət vəkili Adil Əliyev, Azərbaycan Uşu Federasiyasının prezidenti Azər Həsənsoy, Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Sadıq Sadıqov, Bakı Olimpiya Stadionunun direktoru Cavid Qarayev iştirak ediblər.

Zalın rəmzi lentini kəsən R.Abdullayev, BOS-un yalnız futbola deyil, digər idman növlərinə də xidmət göstərməsi ilə bağlı danışaraq deyib: “Bu gün sevindirici gündür. Cənab prezident Bakı Olimpiya Stadionunun istifadəyə verilməsindən sonra qarşımıza məqsəd qoyub ki, bu qurğu təkcə futbola deyil, digər idman növlərinə də xidmət etsin. Minlərlə gəncin bura gəlməsi sevindiricidir. BOS-un, buradakı zalların idmanımıza böyük töhfə verəcəyinə əminəm”.

## Klubda döyüş növləri ilə məşğul olmaq üçün yüksək səviyyəli imkanlar mövcuddur

Bugünlərdə klubun fəliyyəti barədə ətraflı məlumat almaq üçün adıçəkilən idman ocağına baş çəkdik. “Olimpiya” Peşəkar Döyüş Klubunun direktoru Eldar İsmayılov klubun fəaliyyəti barədə bizə ətraflı məlumat verdi. Qeyd edək ki, idmana uşaq yaşlarından maraq göstərən Eldar İsmayılov idmanla peşəkar şəkildə məşğul olub. O, 2003-cü ildə kikboksinq üzrə Avropa çempionu adını qazanıb.

Eldar müəllim bildirdi ki, klubda təcrübəli məşqçi-müəllimlərin rəhbərliyi altında 5 idman növü tədris olunur. Burada idmançılar Olimpiya idman növlərindən boks, qeyri-Olimpiya idman növlərindən isə kikboksinq, muay-tay, MMA və uşu-sandanın sirlərinə yiyələnirlər. 400 kvadrat metrlik ərazini əhatə edən klubun iki zalı müasir standartlara cavab verir. Burada döyüş növləri ilə məşğul olmaq üçün yüksək səviyyəli imkanlar mövcuddur. Boks, kikboksinq və uşu sanda üzrə məşqlər üçün nəzərdə tutulan zalda müasir tələblərə cavab verən rinq, qeyd olunan idman növləri, eləcə də, fiziki hazırlıqla məşğul olmaq üçün ən son avadanlıqlar mövcuddur. Muay-tay və MMA məşqlərinin keçirildiyi zalda isə bu idman növləri üçün peşəkar meydança quraşdırılıb və trenajorlar yerləşdirilib. Qeyd edək ki, zal ilin bütün fəsillərində məşqlərin keçirilməsi üçün müasir tələblərə cavab verən istilik sistemi ilə təchiz edilib.

## 100-dən çox yeniyetmə, gənc və böyükyaşlı idmançı müxtəlif idman növlərinin sirlərinə yiyələnir

Qısa müddət ərzində fəaliyyət göstərməsinə baxmayaraq, kluba müraciət edənlərin sayı kifayət qədərdir. Eldar İsmayılovun sözlərinə görə, rəhbərlik etdiyi klubun əsas məqsədi ölkəmizdə idmanın inkişafına töhfə vermək, döyüş növləri üzrə peşəkar idmançılar yetişdirmək, aparıcı idman ocaqlarından birinə çevrilməkdir.

“Bu gün Azərbaycanda idman yüksək səviyyədə inkişaf edib. Ölkə təmsilçilərimiz ən mötəbər yarışlarda yüksək nailiyyətlər qazanırlar. Azərbaycanda idman sahəsindəki inkişaf bir sıra dövlətlər üçün nümunədir. Ölkəmizdə gənclər döyüş növlərinə böyük maraq göstərirlər. Bu sahədə kifayət qədər peşəkar, təcrübəli və titullu idmançılarımız var. Klub yaranarkən əsas məqsəd ölkəmizdə qeyri-Olimpiya idman növlərinə dəstək vermək, döyüş növlərini daha da inkişaf etdirmək olub. İki aydır ki, fəaliyyət göstərməsinə baxmayaraq, hazırda klubda 100-dən çox yeniyetmə, gənc və böyükyaşlı idmançı məşğul olur. Qeyd edim ki, kluba müraciət edənlər arasında qadınlar da var. Klubun bazası müasir standartlara cavab verir. Burada idmançıların məşq etmələri üçün hər cür şərait yaradılıb. İdman zalımızda hətta peşəkar yarışlar, eləcə də, kiçikmiqyaslı digər yarışları təşkil etmək üçün də imkan var. Çox istərdik ki, ölkənin öndəgedən klublarından biri olaq. Bu məqsədə nail olmaq istiqamətində fəaliyyətimizi davam etdiririk”.

## İdman ocağı peşəkar məşqçiləri bir araya toplayıb

Eldar İsmayılov bildirdi ki, klub yaranarkən məşqçi seçiminə də xüsusi diqqətlə yanaşılıb. Klubda fəaliyyət göstərən idman növləri üzrə federasiyaların rəhbərliyi ilə bu barədə danışıqlar aparılıb.

“ “Olimpiya” Peşəkar Döyüş Klubunda 5 növ üzrə 7 məşqçi fəaliyyət göstərir. Kluba peşəkar və təcrübəli məşqçiləri cəlb etmişik. Bu məşqçilərin əksəriyyəti vaxtilə peşəkar idmanda öz sözünü demiş idmançılar olublar. Klubun baş məşqçisi olan Ceyhun Abbasov kikboksinq üzrə əməkdar məşqçidir.

Kikboksinq üzrə əməkdar məşqçilər, yığma komandanın məşqçisi Çingiz Eyvazov və 23 qat dünya çempionu Eduard Məmmədov klubda kikboksinqin sirlərini idmançılara öyrədirlər. Bu növ üzrə digər məşqçilərimiz Zaur Qaravəliyev dünya çempionu, Nicat Hüseynov Avropa ikincisi adını qazanıb.

Boks üzrə məşqləri əməkdar idman ustası, 2003-cü ilin dünya üçüncüsü Tofiq Əhmədov və Ceyhun Abiyev tədris edirlər. Qeyd edim ki, onlar vaxtilə ölkəmizi boks üzrə Olimpiya Oyunlarında təmsil ediblər. Uşu-sanda üzrə məşqlər Elşad İbrahimovun rəhbərliyi altında keçirilir. Təcrübəli məşqçilər Ruslan Əfəndiyev MMA, Ruslan Musayev isə muay-tay üzrə məşqləri keçirlər. Təcrübəli və peşəkar məşqçilərin klubda çalışması bizim üçün böyük üstünlükdür və bizi çox sevindirir. İnanıram ki, onların rəhbərliyi altında bir sıra uğurlu nailiyyətlər qazanılacaq”.

Qeyd edək ki, klubun üzvləri arasında bir sıra tanınmış və təcrübəli idmançılar da yer alıblar. MMA üzrə çıxış edən Tofiq Musayev ölkədaxili və beynəlxalq yarışlarda bir sıra uğurlu nailiyyətlər qazanıb. Uşu-sanda üzrə ölkəmizdə keçirilən IV İslam Həmrəyliyi Oyunlarının gümüş mükafatçısı, məşqçi Ruslan Əfəndiyevin yetirməsi Vüqar Kərimov buyaxınlarda Ukraynada qarışıq döyüş növləri üzrə keçirilən WWFS liqasında peşəkarlar arasında döyüşdə qalib gəlib.

***Aysel Sultanova,***
***Esmira Orucova***

# Formula-1

## 1, 4 milyard televiziya tamaşaçısı “Formula-1”ə baxıb

“Formula-1”in rəsmiləri 2017-ci il üçün tamaşaçı sayını hesablayıblar. Məlum olub ki, dünyanın ən mötəbər idman tədbirlərindən olan “formula” yarışlarını yola saldığımız ildə 1,4 milyard tamaşaçı televiziya vasitəsilə izləyib. Bu say 2016-ci ilə nisbətən 6,2 dəfə çoxdur. Yarışlar daha çox İtaliya, Braziliya, Böyük Britaniya, Almaniyadan olan tamaşaçılar tərəfindən seyr edilib.

## “Ferrari” yürüş mühəndisi axtarışındadır

Yeni mövsümdə “Ferrari”nin pilotu kimi Raykonen yürüş mühəndisi axtarışına başlayıb. Belə ki, üçillik fəaliyyətini sona çatdıran finlandiyalı Devid Qrinvud şəxsi problemlər üzündən “Ferrari”ni tərk edib. Qrinvud İtaliyadan ayrıldıqdan sonra İngiltərəyə qayı-



dıb və yerli “Manor” komandası ilə əməkdaşlığa başlayıb. Son məlumata görə, “Ferrari” hələ ki, bu vəzifəyə namizəd tapa bilmir.

## Danil Kivyat “Ferrari” ailəsinin üzvü oldu

Rusiyalı pilot Danil Kivyat “Ferrari” ilə müqavilə bağlayıb. O, komandaya yaradıcı sürücü kimi qəbul edilib. Belə ki, Danil çempionatın bütün mərhələlərinə komanda ilə birlikdə yollanacaq. Komandaya simulyatordakı nəticələr barədə məlumat verəcək. Ola bilər ki, Kivyat testlərdə sükan arxasında da çalışsın. Amma komanda bu məlumatı təsdiqləməyib.



Xatırladaq ki, keçən mövsümün sonunda rusiyalı sürücü “Toro Rosso”dakı çıxışını sona çatdırmışdı. Onun adı bir müddət “Williams”komandası ilə hallansa da, Danil sonda “Ferrari” ilə razılıq əldə etmişdi. Məlumat üçün bildirək ki, İtaliya təmsilçisinin sponsorlarından biri olan “Kaspersky Lab” şirkəti Rusiyanı təmsil edir.

## Alonso bu mövsüm iki cəbhədə döyüşəcək



“Maklaren”in pilotu Fernando Alonso yeni mövsümdə üçüncü dəfə çempion olmaq barədə düşünür. İspaniyalı bununla yanaşı, öz qüvvəsini “İndycar” yarışlarında sınamaq fikrindədir. “”Maklaren” üçün gözəl imkan yaranıb. Rəqabətədavamlı olmaq lazımdır. “Reno” mühərriki bizim köməyimizə çatacaq. Bununla bərabər “500 mil İdianapolisə”, “24 saata Lemana” və digər yarışlarda mükafat qazanmaq da pis olmazdı”, - deyə Fernando Alonso bildirib.

## 15 milyon nəfər bu pilotu izləyir

Britaniyalı həmkarlarımız maraqlı bir sorğu keçiriblər. Sorğunun mövzusu belə olub: “Sosial şəbəkələrdə hansı pilot daha məşhurdur?” Araşdırmalara görə, birinci pillədə Lyüis Hamilton yer alıb. Onun sosial şəbəkədə 15 milyona yaxın izləyicisi var. Fernando Alonso ikinci (6,15 milyon), Daniel Rikkardo isə üçüncü pillədə yer alıb - 3,49 milyon.

***Sosial şəbəkələrdə ən çox izəyicisi olan pilotlar:***

1. Lyüis Hamilton - 14, 98 milyon izləyici
2. Fernando Alonso - 6,15 milyon
3. Daniel Rikkardo - 3,49 milyon
4. Serxio Perez - 2,78 milyon
5. Maks Ferstappen - 2,72 milyon
6. Roman Qrojan - 1,41 milyon
7. Niko Hülkenberq - 1,29 milyon
8. Valtteri Bottas - 1,16 milyon
9. Karlos Sayns - 942 min
10. Kevin Maqnussen - 669 min

# “Azərreyl” məğlub oldu

Qadın voleybolçular arasında “Çelenc Cup” turnirində 1/16 final mərhələsinin cavab görüşləri keçirilib. İlk oyun günündə təmsilçimiz “Azərreyl” “Ştiinta” (Rumıniya) ilə üz-üzə gəlib. Qarşılaşma gözlənildiyi kimi gərgin keçib. Çünki səfərdə 1:3 hesabla məğlub olan “dəmiryolçular” 3:0 qələbə qazanaraq görüşü “qızıl set”ə aparıblar.



Lakin bu, voleybolçularımıza o qədər də asan başa gəlməyib. Belə ki, ilk setdə 7 xal fərqi ilə geri düşən komandamız sonradan toparlanaraq dönüş yarada biliblər. İkinci hissədə isə geri düşən rəqib sonradan toparlansa da, bu, qalibiyyət üçün yetərli olmayıb. Vəziyyətin belə olduğunu görən rəqibin baş məşqçisi Florin Qrapa ehtiyat heyətlə oynayaraq, üçüncü seti “Azərreyl”ə məğlub olub və komandasını “qızıl set” üçün qoruyub. Oyunun Sonuncu, həlledici hissəsi də kifayət qədər gərgin olub. “Azərreyl” hesabda öndə olsa da, rəqib sonda 15:13 hesabı ilə qələbə qazanaraq 1/8 final mərhələsinə yüksəlib.

* * *

“Azərreyl” legionerlərindən biri ilə yollarını ayıra bilər. Almaniyalı toppaylayıcı Maqdelina Qrika “Çelenc Cup”da mübarizəni dayandıran “dəmiryolçular”ın düşərgəsini tərk etməyə hazırlaşır.

Polşanın KSZO klubu mövsümün əvvəlində Bakı təmsilçisinə transfer olunan 24 yaşlı voleybolçunun xidmətində maraqlıdır. Hətta tərəflər arasında danışıqların olduğu da bildirilir. Lakin son qərarı “Azərreyl” verməlidi. Azərbaycan tərəfinin isə onunla müqaviləyə qarşılıqlı şəkildə xitam verməsi də istisna deyil.

## *ADA Universitetində sinxron şahmat yarışı keçirilib*

ADA Universitetinin və Vüqar Həşimov Şahmat Akademiyasının təşkilatçılığı ilə ali təhsil ocağında sinxron şahmat yarışı keçirilib. Turnirdə ADA Universitetinin tələbələri beynəlxalq şahmat ustası Sərxan Həşimova və beynəlxalq qrossmeyster İlahə Qədimovaya qarşı mübarizə aparıblar.

Qeyd edək ki, Beynəlxalq şahmat ustası Sərxan Həşimov onqat Azərbaycan çempionu, Avropa çempionatının bürünc medalçısı, İspaniyanın nüfuzlu San-Sebastian turnirinin qalibi olub. İnformasiya-kommunikasiya texnologiyaları sahəsində 15 ildən çox təcrübəsi olan IT mütəxəssisi Sərxan Həşimov HP, Oracle və SAP kimi beynəlxalq şirkətlərdə çalışıb. O, 2016-cı ildən etibarən “Microsoft Azerbaijan” şirkətinin baş direktoru vəzifəsində çalışır və bir müddət əvvəl “Microsoft”un MDB üzrə İdarə Heyətinin üzvü seçilib.

Beynəlxalq qrossmeyster İlahə Qədimova isə üçqat dünya, ikiqat Avropa çempionu, bir çox beynəlxalq turnirlərin qalibidir.



# DÜNYA İDMANI



## “Təkəbbür və özünəinam arasında fərq böyükdür”

Zlatan İbrahimoviç Fransanın “Canal+” kanalına müsahibə verib. Məşhur futbolçu vətəni İsveçdə medianın ona qarşı münasibətindən söz açıb. Zlatan İbrahimoviç KİV-lərin “gizli irqçilik” etdiyindən narazılığını ifadə edib.

“Medianın mənə hücumu davam edir. Onlar mənim İbrahimoviç olduğumu qəbul edə bilmirlər. Eyni səhvi başqa isveçli futbolçu etsəydi, media onu müdafiə edərdi. Amma iş mənə çatanda bunu görmürəm. Tənqid məni gücləndirən yanacaq kimidir. Mən sizə irqçilikdən danışıram, özü də gizli irqçilikdən. Mən bunu əminliklə deyirəm. Soyadım Andersson və ya Svensson olsaydı, mənə münasibət başqa cür olardı. İnanın ki, bank soysam belə, məni müdafiə edərdilər. Bəlkə də, İsveç tarixinin ən yaxşı futbolçusu mənəm. Etdiklərimi heç kim etməyib. “İsveçdə ilin ən yaxşı futbolçusu” mükafatı ölkə tarixində cəmi 2 dəfə əldə edilib. Mən isə bu mükafata 11 dəfə layiq görülmüşəm.

Mən təkəbbürlü insan deyiləm. Bu, özünəinamdır. Təkəbbür və özünəinam arasında isə fərq böyükdür”.



## Meyvezer mütləq dünya çempionu deyil

İlk ağır və super ağır çəki dərəcəsində keçmiş mütləq dünya çempionu Evander Holifild həmkarı Floyd Meyvezer haqqında bəzi fikirlər səsləndirib.

“Düşünürəm ki, Floyd Meyvezer böyük idmançıdır. Lakin o, mütləq dünya çempionu deyil. Mütləq dünya çempionu olmaq üçün mənim kimi bütün kəmərlərə sahib olmaq lazımdır.

Mən bütün çempion kəmərləri olan boksçuları məğlub etmişəm. Meyvezer isə bunu bacarmayıb”, - deyə tanınmış boksçu deyib.

## Endi Mürrey əməliyyat olunub



Britaniyalı tennisçi Endi Mürrey əməliyyat olunub.

Tanınmış tennisçinin korta qayıtması çox güman ki, 14 həftədən sonra mümkün olacaq.

Endi Mürrey deyib: “Həkimlərin sözlərinə görə, bərpa prosesi 14 həftə davam edəcək. Mən korta ot mövsümündə qayıda biləcəyəm. Yarışlarda özümü tam sağlam və formada hiss etdikdən sonra iştirak edəcəyəm”.

## Məşhur idmançıların məşhur fikirləri

**İdmançılara sona qədər mübarizə aparmağı məsləhət görürəm. Sonda bilin ki, yalnız qızıl medal və çempionluq var.**

*Larisa Latınina*

* * *

**Həyatda nə qədər əziyyət çəksən, qazandıqların bir o qədər çox olacaq. Bununla da sən həyatın nə olduğu hamıdan yaxşı anlayacaqsan.**

*Pele*

* * *

**Futbolçu dinini, avtomobilini, demək olar ki, sahib olduqlarının hamısını dəyişə bilər. Amma doğma klubunu heçə vaxt dəyişməli deyil.**

*Erik Kantona*

**Həyat raundlardan ibarətdir. Sonuncu görüş mütləq nokdaunla başa çatacaq.**

*Slavomir Vrublevski*

* * *

**Bizdə hər şey çox sadə idi. Deyirdilər ki, bu gün sən bir stolun üzərindən tullanmalısan. Buna adi baxıb, tullana bilmirdik. Elə ki, müəllim əlinə çubuq götürürdü, biz artıq iki stolun üzərindən tullanırdıq. Burda çətin nə var ki?**

*Ceki Çan*

* * *

**Bir hərəkət min düşüncədən üstündür.**

*Con Meyson*

* * *

**Uğur sən tərəfə gələn deyil, ayaqqabını geyin, qaç onu təqib elə.**

*Useyn Bolt*

## “Həyatdan küsmüşdüm”



Madrid “Atletiko”sunun argentinalı hücumçusu Anxel Korrea kədərli və hüzn dolu həyatını ilk dəfə mətbuata açıqlayıb.

“El Enganche” nəşrinə müsahibə verən futbolçu uşaqlıqdan bəri həyatının çox çətin keçdiyini deyib: “Çox kədərli, üzüntülü hadisələrlə üzləşdim və sığındığım tək yer futbol oldu. Atamı itirəndə 10 yaşım var idi.

Ətrafımdakı hər şey məni özümü pis hiss etməyə məcbur edirdi. Həyatdan küsmüşdüm, amma sonra futbolda təsəlli tapdım. Hər şey düzəlmişdi ki, 2 qardaşım birdən vəfat etdi. Bütün olanları unutmaq istəyirdim. Sadəcə və sadəcə, sığındığım tək yer futbol idi”.

Anası ilə birlikdə həyatın çətinliklərinə dözən futbolçunun tək ümidi meydança olub. Qazandığı az məbləğdə pulu anasına verən Anxel Korreanın ən çətin anlarında köməyinə xaç atası gəlib. Bu xeyirxah insan ona forma və idman ayaqqabısı alıb, Anxeli oxumağa məcbur edib.

Futbolçu deyib: “Hər zaman xaç atama borclu qalacağam. Zamanında mənə və anama çox kömək edib. Anam çox əzab çəkib. Mən atamı və qardaşlarımı itirmişdim, amma heç vaxt özümü onun yerinə qoya bilmirdim. Çünki övladlarını və həyat yoldaşını itirməyin necə ağır ola biləcəyini təsəvvür edə bilmirdim.

Anamı güldürə bilmək üçün hər gün əlimdən gələni edirdim. Onun tək ümidi mən, mənimki isə o idi”.

Zaman keçir və Korrea istedadlı bir futbolçu kimi yetişib “Atletiko”un marağını cəlb edir. Uzun sürən transfer görüşmələrindən sonra razılıq əldə edilir və Anxel artıq “Atletiko”ya keçməyə hazırdır. Amma tibbi baxış zamanı həkimlər oyunçunun vəziyyətinin yaxşı olmadığını görürlər.

Atasını və 2 qardaşını itirmiş bir gəncin ürəyi bu qədər ağrını həzm edə bilməzdi. Korreanın ürəyində şiş var idi. O, əməliyyat olunmalıydı və özü də çox riskli bir əməliyyat. Həkimlər çətinliklə olsa da, qərar qəbul edərək Anxelə adi bir əməliyyata girəcəyi yalanını deyirlər.

Həyatı boyunca əzab, kədər və hüzn yaşayan futbolçu üçün sonunda yaxşı nəsə baş verirdi. Əməliyyat uğurlu keçmişdi. Sağaldıqdan sonra həkimlər Anxelə yalan dediklərini etiraf etməyi unutmadılar.

Hazırda isə “Atletiko”nun formasını geyinən Anxel Korrea “gözəl günlər görmək” ümidi ilə həyatına davam edir.

*Səadət Hakıyeva*

## UEFA futbolçu üçün yenidən medal hazırlayacaq

AÇ-2008-də bürünc medal qazanan Rusiya millisinin oyunçusu Vladimir Bıstrovun medalını oğurlayıblar. Rusiyanın “Tosno” klubunun yarımmüdafiəçisi bununla bağlı UEFA-ya müraciət edib.

Qitənin ali futbol qurumu hadisə ilə bağlı açıqlama verib: “Nə baş verdiyini bilirik. Artıq yeni medal sifariş olunub və hazır olan kimi Rusiyaya göndəriləcək. Bütün xərcləri isə UEFA qarşılayacaq”.



Qeyd edək ki, AÇ-2008-də Rusiya millisi Türkiyə yığması ilə birlikdə bürünc medallar qazanmışdı.



## “Olimpiya dünyası” qəzetinin arxivindən

(“Olimpiya dünyası” qəzetinin keçirdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsindən)

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54; 564-74-19